Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

23
APREL
2019-cu il
№ 72 (3970)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# SƏFİRDƏN ÖNƏMLİ AÇIQLAMA - ABŞ-ın AZƏRBAYCANDA VƏ ERMƏNİSTANDA İNDİKİ İSLAHATLARA İKİ FƏRQLİ YANAŞMASI...

səh. 5

Ermənistan Lavrovun iştirakı ilə əldə olunmuş son razılaşmanı da pozdu - atəşkəs pozuntuları intensivləşir...

səh. 3

Geosiyasi oyunlar neftin qiymətini yenidən 100 dollara çatdırır - mayın 2-dən Azərbaycanda hər kəsin hiss edəcəyi vəziyyət yaranacaq...

səh. 4

AXCP üzvlərinin Saatlıda toy qalmaqalı - İcra Hakimiyyətinin müdaxiləsi, ya əks kampaniya...

səh. 4

Yanmış "Diqlas"ın yanındakı məşhur "Çin bazarı"nda hər şey baş verir, ancaq bazarın kimə aid olduğu bilinmir...

səh. 12

Bakı və Sumqayıtda bir neçə restoran Ekologiya Nazirliyinin təqdimatı ilə qapadıla bilər

səh. 14

Ödəniş terminalları köhnə kağız pulları niyə qəbul etmir

səh. 13

Riyaziyyat olimpiadasında verilmiş suala baxın - Malış-Toşa məntiq(sizliy)i...

səh. 15



## Türkiyədə Rusiyanın hərbi bazası, F-35-in əvəzinə rus qırıcıları - regionda yeni geosiyasi vəziyyət, NATO parçalanma ərəfəsində...

səh. 8



Avroittifaq komissarının Brüsseldə Paşinyana verdiyi iki «Qarabağ məsləhəti» indi açılır - Ermənistan növbəti diplomatik zərbəni ABŞ-da almaqdan çəkinir...

səh. 9

İlk üç ayda Azərbaycanın ixrac strategiyası üçün ziyanlı nəticə - idxal niyə artıb...

səh. 11



Poroşenkonun uduzmasına ABŞ-dan inanılmaz seyrçiliyin sirri - Zelenski Qüdsü İsrailin paytaxtı kimi tanıyacağına söz verib(?)

səh. 6

səh. 3

Mühüm ərəfələr - bəzi beynəlxalq qurumlar, antimilli qruplar və erməni lobbisi Azərbaycanın üstünə yeriyir...



səh. 5

Mübahisəli İstanbul seçkisinin ardınca iqtidar və ana müxalifətin davranışları sərtləşir...



səh. 10

1990-cı ilin aprelində Xankəndidə baş verənlərin şahidi olmuş qələm sahibi maraqlı faktlar açır



səh. 7

Xalidə Bayramovanın yerli və qeyri-yerli media arasında seçimi - niyə məhz "Meydan TV" seçildi...



səh. 11

Bankomatların banklararası xidməti pullu həyata keçirməsi əhalini narazı salır, çünki pul itirilir...



# Azərbaycan-Türkiyə birgə hərbi təlimi keçiriləcək

**Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 3-dək ölkəmizdə "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə döyüş atışlı birgə taktiki təlimi keçiriləcək.**

Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata görə, təlimdə iştirak etmək üçün Azərbaycana gələn Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin təntənəli qarşılanma mərasimi olub.

Təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərini və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaqdır.



Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb ediləcək.

Təlimə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılır.



## Prezident İlham Əliyev Ukraynanın yeni Prezidenti Vladimir Zelenskini təbrik etdi

**Prezident İlham Əliyev Ukraynanın yeni seçilmiş Prezidenti Vladimir Zelenskiyə təbrik məktubu göndərib.**

Təbrikdə deyilir: "Hörmətli cənab Zelenski, Ukraynanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Ukraynanı zəngin ənənələrə malik dostluq əlaqələri birləşdirir. İnanıram ki, bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimiz, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram".

## Problemli kreditlər üzrə kompensasiyalar üçün ilk tranş çərçivəsində ayrılan vəsait açıqlanıb

**Maliyyə Nazirliyi fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiyaların ödənilməsi üçün ilk tranş çərçivəsində 350,8 milyon manat ayırıb.**

Bunu "Trend"ə nazirliyin mətbuat xidmətinin rəhbəri Mais Piriyev deyib. Onun sözlərinə görə, bu vəsait banklar və bank olmayan kredit təşkilatlarının, eləcə də ləğvetmə prosesində olan təşkilatların hesablarına köçürülüb. Qeyd edək ki, aprelin 22-dən fiziki şəxslərin problemli kreditləri üzrə kompensasiyaların ödənilməsinə başlanılıb. Kompensasiyaları 602 347 nəfər alacaq.

## Tramp İrandan neft alan 8 ölkəyə daha əvvəldən etdiyi güzəştləri ləğv edir



**ABŞ Prezidenti Donald Tramp İrandan neft alan ölkələrə tanınan güzəştin müddətini uzatmayacağı açıqlanıb.**

Baki-xeber.com xəbər verir ki, Ağ Evin yaydığı açıqlmada Tramp İrandan neft alan ölkələrə tətbiq olunan güzəştin müddətini uzatmamaq barədə qərar qəbul etdiyi bildirilir.

"Əsas məqsədimiz İranın bir nömrəli gəlir mənbəyi olan neft ixracını tam dayandırmaqdır. Vaşinqton və müttəfiqləri İrana qarşı iqtisadi təzyiqləri davam etdirəcək" - Ağ Evin açıqlamasında deyilir.

Açıqlamada ABŞ, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və digər müttəfiqlərin qlobal neft bazarında tədarükün lazımi səviyyədə təmin edilməsində qərarlı olduqları bildirilir.

Bu açıqlamadan sonra dünya birjalarında neftin qiyməti kəskin bahalaşıb.

Beləliklə, İrandan neft alan - Türkiyə, Çin, Hindistan, Yaponiya, Cənubi Koreya, Tayvan, İtaliya və Yunanıstana tətbiq edilən və mayın 2-də başa çatacaq güzəştin müddəti uzadılmayacaq.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -

Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02



## Məşhur danimarkalı milyarderi yıxan xəbər... İş adamı Şri-Lanka terrorunda 4 övladını itirdi

Danimarkanın ən varlı adamlarından biri Anders Holç Povlsenin dörd uşağının da Şri-Lankada törədilmiş terror hücumlarında öldüyü məlum olub.

Baki-xeber.con xəbər verir ki, Şri-Lanka Xarici İşlər Nazirliyi hücumlarda 290 nəfərin həlak olduğunu, bunlardan 27-nin əcnəbi olduğunu açıqlayıb. Nazirlik 450 nəfərin yaralandığını bildirib.

Dünyaca məşhur geyim markası Bestseller və ASOS.com-un sahibi Anders Holç Povlsenin uşaqlarının da həlak olanlar arasında olduğu bildirilir. 6,7 milyard dollar sərvətlə Danimarkanın ən varlı adamlarından olan iş adamının 4 övladının öldüyü açıqlanıb.

İş adamının qızı Almanın Instagram hesabında 4 gün əvvəl paylaşdığı şəkil isə ailənin birlikdə çəkilmiş son şəkli olub.

## Xalq artisti kütləvi təcavüzə məruz qaldığını televiziya efirində açıqlayır...

**NTV kanalının "Milyonlara sirr" verilişinin qonağı olan Rusiyanın Xalq artisti Alyona Yakovleva kütləvi təcavüzə məruz qaldığını açıqlayıb.**



Aktrisanın sözlərinə görə, günlərin birində xalasına qonaq getmək üçün maşın saxladıb. Maşında iki kişi olub və onlar aktrisanı getdiyi ünvana çatdırıb, geriyə qaytarmaq üçün gözləyə biləcəklərini deyiblər. Yakovleva razılaşıb və qayıdarkən maşın onun evinin yanından ötüb. Onu düzənlikdəki bir evə gətiriblər və burada o, üçüncü bir kişinin olduğunu görüb. Ona içki təklif ediblər, özləri isə sərxoş olmayıblar. Yakovleva qalxıb getmək istəyəndə isə ona imkan verməyiblər və aktrisa başqa çıxış yolu olmadığını anlayıb - çölün ortasında qışqırıb kimisə köməyə çağırmağın heç bir mənası yox idi, müqavimət göstərsəydi, onu ya vurub şikəst edər, ya da öldürüb bir dərəyə atıb gedərdilər. O üzdən Yakovleva sadəcə "yaxşı, birinci kim olacaq" deyərək onları şoka salıb. Televiziya efirində açıqlama verən Xalq artisti deyib ki, təfərrüatlara varmayacaq, lakin bu 3 nəfər onunla istədiyi şəkildə davranıb və ardından, nə qədər qəribə də olsa, onu sağ-salamat evinə gətiriblər.

Aktrisa deyib ki, maşının nömrəsini xatırlamır və baş verənlərə bağlı nə valideynlərinə, nə də hüquq-mühafizə orqanlarına heç bir açıqlama verməyib. Yalnız onu deyib ki, "Tanrı və qoruyucu mələyim məni hifz etdi".

Xatırladaq ki, Moskva Akademik Satira Teatrının aparıcı aktrisası Alyona Yakovleva SSRİ Xalq artisti, "Taleyin istehzası və ya həmişə təmizlikdə", "İvan Vasilyeviç peşəsini dəyişir" kimi məşhur filmlərdən yaxşı tanıdığımız Yuri Yakovlevin qızıdır.

Xəbərdə o da deyilir ki, 2017-ci ildə Hollivud aktrisaları prodüser Harvi Vaynşteyn tərəfindən təcavüzə məruz qaldıqlarını bildiriblər və sosial şəbəkələrdə buna etiraz olaraq #metoo adlı fləşmob təşkil ediblər. Rusiyada bu fləşmob #demekdençəkinmirəm həştəqi altında keçirilib. "Time" jurnalı isə #metoo hərəkatının üzvlərini ilin adamları elan edib.

**SAMİRƏ**

**Məlum olduğu kimi, aprelin 15-də Moskvada Rusiya tərəfinin təşəbbüsü və bu ölkənin xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib.**

# Ermənistan Lavrovun iştirakı ilə əldə olunmuş son razılaşmanı da pozdu - atəşkəs pozuntuları intensivləşir...




*"Çünki münaqişəni yaradan, idarə edən və həllinə imkan verməyən məhz Kremldir"*

## *Əli Orucov: "Rusiyanın Ermənistan tərəfindən atəşkəsin pozulmasına reaksiya verməməsi..."*

Görüşdə ATƏT-in Minsk Qrupunun digər həmsədrləri iştirak etsə də, ümumilikdə, sözügedən danışıqlar Rusiyanın moderatorluğu ilə baş tutub.

Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Bundan əlavə, bu ilin 29 mart tarixində Vyanada baş tutmuş Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Düzdür, sözügedən görüşdə münaqişənin həlli ilə bağlı prinsipial razılıq əldə olunmasa da, bir sıra humanitar xarakterli məsələlər razılaşdırılıb. Görüşdə habelə münaqişə zonasında gərginliyin azaldılmasına dair tədbirlər, humanitar sahədə mümkün birgə fəaliyyət üzrə fikir mübadiləsi aparılıb. Nazirlər KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla, insanlar arasında təmasların qurulması istiqamətində praktiki addımların atılmasına razılıqlarını ifadə ediblər.

Görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıblar. Tərəflər münaqişə zonasında, xüsusilə kənd təsərrüfatı fəaliyyəti zamanı bundan sonra da sabitlikdə maraqlı olduqlarını təsdiqləyiblər. Tərəflər, həmçinin, hər iki ölkədə saxlanan məhbusların yaxınlarının görüşməsinə dair qarşılıqlı tədbirlər barədə razılığa gəliblər.

Diqqətçəkən məqamlardan biri odur ki, Moskva görüşündən sonra humanitar xarakterli bəzi razılaşmalar əldə edilsə də, bu, Ermənistan tərəfindən atəşkəsin pozulması hallarının azalmasına gətirib çıxarmayıb. Moskva danışıqlarından sonra da Ermənistan silahlı qüvvələri atəşkəsi pozmaqda davam edirlər. Bəzi hallarda atəşkəs daha çox pozulur. Maraqlıdır ki, son danışıqlara moderatorluq edən Rusiya indiyə qədər buna hər hansı reaksiya verməyib. Baxmayaraq ki, bu həmdə əldə olunan bəzi razılaşmalar fonunda Rusiyaya qarşı bir hörmətsizlikdir. Maraqlıdır, Rusiyadan buna niyə reaksiya yoxdur?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucov bunu bir sıra amillərlə əlaqələndirdi:** "Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü bundan əvvəlki görüşlərdən bir qədər fərqləndi. O mənada ki, humanitar xarakterli bəzi razılaşmalar əldə edildi. Ermənistan mümkün olan qədər çalışır vaxtı uzatsın. Ermənistanın heç bir kompromisə getməməsi fonunda, bəzi humanitar məsələlərlə bağlı razılığa gəlməsi hələ hər şey demək deyil. Rusiyanın Ermənistan tərəfindən atəşkəsin pozulmasına reaksiya verməməsi, bir növ, gözlənilən idi. Çünki münaqişəni yaradan, idarə edən və həllinə imkan verməyən məhz Kremldir. Ona görə də rəsmi Moskva bilərəkdən özünü elə aparır ki, arbitr kimi həmişə ona ehtiyac yaransın və region gərginlikdən xilas olmasın. Xüsusən də region ölkələri Avroatlantik məkanla əməkdaşlıqla bağlı niyyətlərini ortaya qoyanda, yaxud da hansısa yumşalma yaranında dərhal Qarabağ problemi bir cəza aparatı kimi işə salınır. Bu yaxınlarda rus politoloqu Duqinin müsahibəsində açıq tekstlə Ermənistan və Azərbaycan hakimiyyətlərinə hədələyici tonda bir daha xəbərdarlıq edildi. Onun yanaşmasından belə çıxır ki, Moskvanın ətəyindən tutmayın ətəksiz qala bilər. Münaqişədə balanslaşdırmanın və konservləşdirmənin əsl səbəbi də Cənubi Qafqaza Qərbin gəlməsini əngəlləməkdir. Bu da suveren dövlətin Kremldən daha çox asılılığının saxlanmasına, silah satışından külli miqdarda qazanc götürülməsinə xidmət edir. Lakin tibbin özündə də bədənin ağrı verən hissəsini ağrıkəsicilərlə uzun müddət saxlamaq olmur.

Birdəfəlik əməliyyat edilir ki, digər nahiyələrin də fəaliyyətinə mane olmasın. Xəstə bədən sağalısın. Azərbaycanın da bu yaralı yerinin müalicəsi Milli Ordumuzun əlindədir. Tam əminliklə deyirəm ki, Silahlı Qüvvələrimiz qısa müddətdə erməni cəlladların torpaqlarımızdan qovub ümummilli dərdimizə şəfa vermək gücündədir. O zaman ermənilər danışıq masasına qaça-qaça gələcəklər".

***Vidadi ORDAHALLI***

---

**Adətən Azərbaycanda mühüm tədbirlər keçirilən ərəfədə bəzi anti-Azərbaycan mövqeli təşkilatlar, xaricdə yaşayan antimilli təfəkkürə malik ünsürlər və ermənilər fəallaşmağa başlayırlar. Bütün resursları səfərbər edib antitəbliğat aparırlar. Belə ki, "mühacir" pərdəsi altında gizlənib çirkin kampaniya aparırlar.**

# Mühüm ərəfələr - bəzi beynəlxalq qurumlar, antimilli qruplar və erməni lobbisi Azərbaycanın üstünə yeriyir...



*"Sözügedən qüvvələrin mühüm tədbirlər ərəfəsində fəallaşması..."*

## *Elçin Mirzəbəyli: "Azərbaycanda aparılan bütün islahatların mahiyyətində bilavasitə şəffaflığın təmin edilməsi dayanır"*

Bəzi təşkilatlar Azərbaycan barəsində qarayaxma xarakterli hesabatlarını dərc edirlər. Bir növ, keçiriləcək tədbirlərdən sui-istifadə edərək Azərbaycanı gözdən salmağa çalışırlar.

Bu il də öz "ənənələrinə" sadiq qalaraq bəzi beynəlxalq təşkilatlar bu yöndə fəaliyyətlərini artırırlar. Bu sıraya "Amnesty International", "Human Rights Watch", "Free Press", "Sərhədsiz reportyorlar" (RSF) təşkilatları və digərləri daxildir. Bu qurumlar daim anti-Azərbaycan mövqeli hesabatları ilə gündəmdə olublar.

Məlum olduğu kimi, bu il də Azərbaycan bir sıra önəmli beynəlxalq tədbirlərə evsahibliyi edəcək. Bir neçə gündən sonar Formula-1 yarışı başlayacaq. Həmçinin, iyun ayında Bakıda Qoşulmama Hərəkatının XVIII zirvə toplantısı keçiriləcək. Tədbirdə Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları iştirak edəcəklər.

Qeyd edək ki, Azərbaycan adıçəkilən hərəkata 2011-ci ildə Balidə keçirilmiş XVI Nazirlər Konfransında qoşulub.

2019-2022-ci illər ərzində isə Azərbaycan Respublikası Qoşulmama Hərəkatına sədrlik edəcək. Bununla yanaşı, Azərbaycan Avropa Gənclər Olimpiya Festivalına evsahibliyi edəcək.

Ən başlıcası, bu il Azərbaycanla Avropa İttifaqı arasında saziş imzalanacağı gözlənir. Hansı ki, sözügedən saziş Azərbaycan üçün çox mühüm əhəmiyyətə malikdir. Belə bir ərəfədə bəzi beynəlxalq insan haqları təşkilatlarının, xaricdə "mühacir" adıyla yaşayan antimilli ünsürlərin və ermənilərin Azərbaycana qarşı fəaliyyəti nə dərəcədə bir-birilə əlaqəli ola bilər? Ekspertlər ümumən bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, sözügedən qüvvələrin mühüm tədbirlər ərəfəsində Azərbaycana qarşı fəallaşması, bir növ, ənənə halını alıb: "Bu dəfə də bənzər tendensiya müşahidə olunur.** Azərbaycanda çox ciddi islahatlar həyata keçirilir. Bu siyasətin nəticəsi olaraq vətəndaş məmnunluğu təmin edilir. Belə olan təqdirdə həyata keçirilən təxribat kampaniyalarının hədəfində Azərbaycan dövlətinin imici və ölkə vətəndaşları dayanıb. İstəyirlər ki, aparılan islahatları vətəndaşların gözündən salsınlar. Ölkənin beynəlxalq imicinə zərər vursunlar. Ona görə də sözügedən qüvvələr eyni vaxtda aktivləşiblər. Aparılan qaralama kampaniyası təkcə hakimiyyətə qarşı deyil, həm də Azərbaycana qarşı yönəlib. Digər bir amil də ondan ibarətdir ki, mütəmadi olaraq insan haqları adından danışan sözügedən təşkilatlar nəinki Azərbaycana qarşı, həmçinin, digər ölkələrə qarşı da belə çirkin kampaniya aparırlar. Müəyyən qərəzli hesabatlar hazırlayırlar. Azərbaycanda aparılan bütün islahatların mahiyyətində bilavasitə şəffaflığın təmin edilməsi dayanır. Vergi, gömrük və digər sahələrdə aparılan islahatlar ölkədə şəffaflığın təmin edilməsinə gətirib çıxarır. İnsan hüquqları ilə bağlı böyük işlər görülüb. Cəzaların yüngülləşdirilməsindən tutmuş, məhkəmə-hüquq sistemi ilə bağlı Prezidentin qərarları inqilabi xarakterlidir. Prinsipcə, beynəlxalq təşkilatlar, o cümlədən, "Amnesty International", "Human Rights Watch" bütün bunları təqdir etməlidirlər. Ancaq, göründüyü kimi, bu onların marağına xidmət etmir. Çünki insan haqları adından danışan təşkilatlar, antimilli qüvvələr və ermənipərəst dairələr Azərbaycanın daha da güclənməsini istəmirlər. Ona görə də aparılan birgə qaralama kampaniyasının kökündə Azərbaycanı zəiflətmək niyyəti dayanır. Hesab edirəm ki, onların bu yöndə fəaliyyəti fiaskoya uğrayacaq".

***Vidadi ORDAHALLI***

**İran iqtisadiyyatına zərbə vurmaq məqsədilə ABŞ bu ölkəyə qarşı yeni addımlar atmağa hazırlaşır. "The Washington Post" qəzeti yazır ki, həmin addımlardan biri kimi, ABŞ Dövlət Departamenti bəzi ölkələrə İran neftini almağı artıq qəti qadağan edəcək. Xatırladaq ki, ABŞ indiyə qədər 7 ölkəyə İran neftini almaqda güzəştə getmişdi. Amma artıq bu güzəşt də aradan qaldırılır.**

# Geosiyasi oyunlar neftin qiymətini yenidən 100 dollara çatdırır - mayın 2-dən Azərbaycanda hər kəsin hiss edəcəyi vəziyyət yaranacaq...

Mayın 2-dən bütün ölkələr İran neftinin idxalını dayandırmağa məcbur ediləcək. Əks təqdirdə həmin ölkələr Amerika sanksiyaları ilə üzləşəcək.

ABŞ-dan qiymətlərin qalxmaması üçün İran neftilə əlaqədar yaranan boşluğun Səudiyyə Ərəbistanı və digər ölkələrin hesabına kompensasiya olunacağına dair gözləntilər isə özünü doğrultmur. İndi ekspertlər bildirir ki, ABŞ İran neftinin qarşısını tam alsa, neftin bir barrelinin qiyməti 100 dolları keçər. Artıq ABŞ-ın məlum mövqeyindən sonra dünya birjalarında neftin qiyməti bahalaşıb. Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 1,74 dollar artaraq 73,71 dollar, Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 1,50 dollar bahalaşaraq 65,5 dollar təşkil edib. Azərbaycan neftinin qiyməti də bahalaşır. Belə ki, "Azeri Light" markalı neftin bir barrelinin qiyməti artıq 75 dollara çatır. Lakin yaxın tezlikdə qiymətlərin daha yüksək olması proqnozlaşdırılır. "Forbes" dərgisi yazır ki, buna səbəb təkcə İran ətrafında yaşananlar deyil. Venesuela və Liviyada yaşananlar üzündən qiymətlər gözlənildiyindən də tez yüksəlir. Bu xüsusda daha sonra qeyd olunur: "İlk növbədə, İran nefti bazardan çıxacağı halda neftin nə qədər bahalaşacağı düşünülməlidir. Buna Venesuelanın problemlərini də əlavə edin, - bu halda, dünya böyük bir çatışmazlıqla üzləşir. Üç il əvvəl sanksiyaların qaldırılmasından sonra İran istehsalının sürətlə artması və ixrac fəaliyyətinin yenidən bərpası çox heyrətamiz idi. OPEC-in üçüncü böyük istehsalçısı gündə 2.2 milyon barrel olan ixracını iki dəfə artırdı. Avropa qısa zamanda gündəlik 500-600 min barrel neft idxal edən İranın ən böyük alıcısı oldu. Amma ABŞ-ın İranla nüvə müqaviləsindən çıxmasından sonra vəziyyət dəyişir və gələn ay neft istehlakçıları üçün daha da pisləşəcək. Avropa və digər ölkələrdən olan neft emalçıları və treyderləri tədricən bazardan kənarlaşacaq. Çünki onlar İranla əlaqəli çətinlikləri və ABŞ maliyyə bazarlarında sanksiyaları pozmanın potensial cəzasını anlayırlar. ABŞ-da aktivləri az olan və ya Amerikanın sanksiya siyasətini daha az nəzərə almış Çin və Hindistan kimi sürətlə inkişaf edən ölkələrin bir hissəsi, ehtimal ki, əlavə risqə görə İrandan sağlam bir endirim əldə etməklə, gərginliyin bir qismini öz üzərinə götürəcək. ABŞ-la daha yaxın əlaqəli olanlar dövlətlərin - Yaponiya və ya Cənubi Koreyanın İranın xam neftini alması daha çətin olacaq və onlar Vaşinqtonun sanksiyalardan imtina etməsini gözləyəcək.




İranın Avropa bazarına ixracatını Asiya alıcıları ilə əvəz edə biləcəyi mühüm məsələdir və yaxından izlənilməlidir. Bəlkə də daha vacib olan Trampın öz İran siyasətinin neft qiymətlərinə təsirini anlaması ölçüsündədir. Son zamanlar prezident "süni yüksək" neft qiymətlərinə görə OPEC-ə sözlü hücum edib. Trampin fikrincə, kartel Rusiya və OPEC-ə daxil olmayan digər istehsalçılarla hasilatın azaldılması ilə neftin qiymətini artırıb. Trampın neft qiymətlərinin artmasına həssas olması, ehtimal ki, qlobal iqtisadiyyatın gələcək aralıq müddətləri ilə daha çox əlaqəlidir. Ancaq artan geosiyasi risqlər, xüsusilə də İran məsələsi qiymət artımını daha da sürətləndirir".

Maraqlıdır ki, qeyd olunan bu fikirlər Azərbaycanın da neft bazarına yanaşmasını adekvat şəkildə əks etdirir. Energetika naziri Pərviz Şahbazov da vurğulayır ki, neft bazarı çox kövrək xarakter alıb. Onun sözlərinə görə, son vaxtlar neftin qiymətinin geosiyasi proseslərdən asılılığı güclənib və neft risqli bir enerji resursuna çevirib: "Bu isə neft ölkələrinə risqləri azaltmaq üçün bazarın tənzimlənməsi kimi əlavə öhdəlik qoyub. Təsədüfi deyil ki, 2 il müddətində neft bazarını tarazlaşdıran OPEC+ formatında qəbul edilmiş qərarlar olub. Bu qərarlar dəyişən vəziyyətə uyğun bazarın çevik tənzimlənməsinə xidmət etməli, neft istehsalçıları kimi, neft istehlakçılarının da maraqlarının qorunmasına imkan verməlidir. Hazırda neftin qiyməti qənaətbəxşdir. Dekabr qərarının icra səviyyəsi, təbii ki, aybaay yüksəlir. İyunda hasilatın məhdudlaşdırılması ilə bağlı yeni qərarın qəbulu bir sıra geosiyasi amillər və kommersiya ehtiyatlarının azalma səviyyəsindən asılı olacaq". P. Şahbazov onu da bildirib ki, proqnozlara görə, cari ildə iqtisadi əməkdaşlıq və inkişaf təşkilatı ölkələrində kommersiya neft ehtiyatlarının artımının 3,6%-dən 3,3%-ə qədər azalacağı gözlənir: "Geosiyasi qeyri-sabitliyin və hələ də qeyri-müəyyənliklərin qaldığı bir dövrdə neft ölkələri arasında əməkdaşlıq çox vacibdir. Azərbaycan bu əməkdaşlığın ilk təşəbbüskarı və neftin qiymətinin sabitləşdirilməsinin fəal tərəfdaşıdır".

***Tahir TAĞIYEV***

---

**Artıq bir neçə gündür sosial şəbəkələrdə Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvlərinə aid olan toya yerli icra hakimiyyəti orqanlarının müdaxilə etməsi iddiası ilə bağlı məlumatlar paylaşılır.**

# AXCP üzvlərinin Saatlıda toy qalmaqalı - İcra Hakimiyyətinin müdaxiləsi, ya əks kampaniya...



***Saatlı İcra Hakimiyyəti:** "Görəsən bunu yazanlar düşünürlərmi ki, onların yazdıqları ağ yalana heç kim inanan deyil?"*

***Natiq Ədilov:** "Bəyəm, restoran yiyəsi dəlidir ki, öz xeyrindən qaçsın?"*

Əsasən AXCP tərəfdarının paylaşdığı eyni məzmunlu məlumatda bildirilir ki, Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov AXCP-nin rayon şöbə sədri Şamil Hacıbəylinin qızı ilə AXCP Gənclər Komitəsi Məclisinin sədri Ruslan Nəsirlinin toyuna mane olub: "Belə ki, Şamil Hacıbəyli toy üçün Saatlıdakı şadlıq saraylarından biri ilə danışaraq razılaşıb. Bundan xəbər tutan icra başçısı S.Cabbarovun göstərişi ilə restoran rəhbərliyinə hədə-qorxu gələrək, toyun orada olmasına mane olublar. Deyiblər ki, əgər toy orda olsa, restoran əllərindən alınacaq.

Bundan sonra Şamil Hacıbəyli qərar verib ki, toyu öz həyətində etsin. İcra Hakimiyyəti bu dəfə daha da irəli gedib. R.Nəsirlinin atasına təzyiq edərək, bu nikahı pozdurmaq istəyib. Lakin istəyinə nail olmayıb. Toy Ş.Hacıbəylinin həyətində baş tutub".

Qeyd edək ki, bu hadisə ilə bağlı hətta AXCP sədri Əli Kərimli öz "Facebook" səhifəsində geniş status yazıb. Partiya sədri bu hadisə ilə müavini Fuad Qəhrəmanlının qızının döyülməsi arasında bir paralel apararaq, mövzunu siyasiləşdirməyə cəhd edib. Hətta bu hadisələri AXCP-yə qarşı təzyiq elementi kimi dəyərləndirib. Qeyd edək ki, F.Qəhrəmanlının qızına qarşı xuliqanlıq edən şəxsin hərəkətlərini hətta iqtidarın ən alovlu tərəfdarları belə pisləyiblər. Həmin hadisəni törədən şəxs polis tərəfindən saxlanıb, barəsində həbs qərarı seçilib. Aydın şəkildə görünür ki, bu iki hadisə arasında heç bir uyğunluq yoxdur.

**Çox maraqlıdır ki, indiyə qədər məlum hadisə ilə bağlı Saatlı Rayon İcra Hakimiyyətinin mövqeyinə rast gəlinməyib. Məhz bu səbəbdən də biz Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Saatlı Rayon İcra Hakimiyyəti başçısının köməkçisi Zaur Əsədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məlumatların heç bir əsası yoxdur:** "Bilirsiniz ki, rayon yerlərində toyların heç də hamısı restoranlarda olmur. Elə adam var ki, toyu öz həyətində çaldırmaq istəyir. Bu işlərə İcra Hakimiyyətinin heç bir aidiyyəti yoxdur. Kim necə istəyir, elə də toy edir. Nə də ki, toy edəndə İcra Hakimiyyəti kiminsə siyasi mənsubiyyəti ilə maraqlanır. Axı bu bizim işimizə aid məsələ deyil. Dediyiniz məsələ ilə bağlı yaradılan süni ajiotajla biz də tanış olduq. Özəl restoranlar bu məsələdə sərbəstdirlər. İndi hansı səbəbdən onlarla toy yiyəsi arasında razılaşma pozulub, bunu deyə bilmərik. Yaxşı olar ki, bunu toy yiyəsinin özündən maraqlanasınız".

Toyun həyətdə keçirilməsi ilə bağlı qəbul edilən qərardan sonra icra başçısının tərəflərdən birinin valideyninə nikahı pozmaqla bağlı tələbi də ağ yalan adlandıran rayon rəsmisi dedi ki, axı bu inandırıcı deyil: "Necə yəni, hansısa valideyni çağırıb yanına deyəsən ki, get izdivacı poz. Görəsən bunu yazanlar düşünürlərmi ki, onların yazdıqları ağ yalana heç kim inanan deyil?".

**AXCP Mətbuat xidmətinin rəhbəri Natiq Ədilov isə qəzetimizə bildirdi ki, artıq bu məsələ tam araşdırılıb, əlavə şərhə ehtiyac duymurlar:** "Bəyəm, restoran yiyəsi dəlidir ki, öz xeyrindən qaçsın? Təzyiq olub ki, belə qərar verib".

***Məhəmmədəli QƏRİBLİ***

# Səfirdən önəmli açıqlama - ABŞ-ın Azərbaycanda və Ermənistanda indiki islahatlara iki fərqli yanaşması...

**Azərbaycan islahatların keçirilməsində böyük irəliləyişə nail olub. Məlum olduğu kimi, bu fikirləri ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer Bakıda "Alumni Fair" təhsil sərgisində deyib.**

*"Əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün verilən son sərəncamlar, qeyri-neft sektorunda görülən işlər ABŞ-ın diqqətini cəlb edir"*

Səfirin fikrincə, ölkəsi aparılan islahatları dəstəkləyir: "Biz Azərbaycanın islahatların keçirilməsində səylərini dəstəkləyirik. Azərbaycan bu sahədə böyük irəliləyişə nail olub".

Diplomat onu da bildirib ki, Azərbaycan hələ gənc ölkədir, hələ bir çox işlər görülməlidir: "Biz hökumətin iqtisadi, sosial sektorlarda və vətəndaş cəmiyyəti sahəsində islahatlarını dəstəkləyirik".

Bütün bunlar Birləşmiş Ştatların Azərbaycana və ölkədə həyata keçirilən islahatlara verdiyi önəmin göstəricisidir. Bunun nəticəsidir ki, ABŞ Azərbaycanda aparılan islahatları dəstəkləyir.

Onu da qeyd edək ki, bir müddət əvvəl ABŞ-ın Ermənistanda aparılan islahatlarla da bağlı mövqeyi yayıldı. Bəlli oldu ki, "məxməri inqilab"dan sonra hakimiyyətə gələn Nikol Paşinyandan islahatlarla bağlı gözləntilər özünü doğrultmadı. İndiyə qədər Ermənistana ciddi maliyyə yardımının edilməməsi məhz bu faktorlarla əlaqələndirilir. Ümumiyyətlə, "məxməri inqilab"dan sonra Paşinyanın quru bəyanatlarından savayı Qərbə yaxınlaşmaq yönündə heç bir addımı olmayıb. Bu səbəbdən ötən 1 il ərzində Ermənistan ABŞ və Avropa İttifaqından umduğu maliyyə dəstəyini ala bilməyib. Ötən 1 ildə Ermənistanda əhalinin güzəranının yaxşılaşması, ölkədən kütləvi köçün azaldılması, yeni iş yerlərinin açılması yönündə müsbət dəyişikliklər qeydə alınmayıb. Əksinə, struktur "islahatları" nəticəsində iş yerləri azalıb, ictimai narazılıq və etirazlar, ölkənin xarici borcu artıb. İslahatlar olsaydı, təbii ki, bütün bunlar Ermənistanda yaşanmazdı. Ancaq Ermənistandan fərqli olaraq, Azərbaycanda real islahatlar həyata keçirilir.

O baxımdan yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər? Azərbaycanda aparılan islahatların hansı istiqaməti ABŞ-ı cəlb edir?

**Sözügedən məsələni dəyərləndirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı buna bir neçə aspektdən yanaşdı:** "Birləşmiş Ştatlar dünyada demokratiya və insan haqlarının təəssübkeşi olduğu üçün, bu sahədə aparılan islahatlara xüsusi diqqət edir. Adətən bu sahədə həyata keçirilən bütün islahatlara dəstək verir. Azərbaycanda da bununla bağlı böyük işlər görülür. İnsan hüquqları sahəsində ciddi islahatlar həyata keçirilir. O cümlədən, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün verilən son sərəncamlar, qeyri-neft sektorunda görülən işlər Birləşmiş Ştatların diqqətini cəlb edir. ABŞ görür ki, Azərbaycan regionda sülhün və demokratiyanın inkişafına töhfə verir. Azərbaycanın bu istiqamətdə gördüyü işlər davamlı xarakterlidir. ABŞ bütün bunların fərqindədir. Xüsusən də Prezidentin son aylar qəbul etdiyi inqilabi xarakterli qərarlar daha çox marağa səbəb olub. Bu da təsadüfi deyil. Ona görə ki, bütün bunların hamısı demokratik ölkələrin dəstəklədiyi islahatlardır. Hansı ki, Azərbaycan böyük inamla bu istiqamətdə irəliləyir. Nəzərə almaq lazımdır ki, ölkə başçısının sonuncu əfv qərarı ilə həm də çoxsaylı siyasi məhbus azad edildi. Bu faktor Qərb tərəfindən alqışlandı. Ancaq gəlin görək Ermənistanda "məxməri inqilab" yolu ilə hakimiyyətə gələn Paşinyan nə edib?! Praktiki olaraq Ermənistan baş naziri populist vədlərdən o tərəfə keçə bilməyib. Xarici səfərlərdə belə ya vəd verir, ya da ümumi danışır. Atdığı addımlar ictimai narazılıqlara səbəb olur. Bu səbəbdən ABŞ-ın Paşinyanla bağlı gözləntiləri ötən bir ildə özünü doğrultmadı. Hətta vəziyyət o yerə gəlib çatıb ki, ABŞ təmsilçiləri açıq formada bunu bəyan etməkdən çəkinmirlər. Bir müddət əvvəl ABŞ konqresmenlərindən biri açıq bəyan etdi ki, ABŞ-ın Ermənistandan islahatlarla bağlı gözləntiləri özünü doğrultmadı. Görünən odur ki, bununla bağlı ortadakı fərq kifayət qədər ortadadır".

***Məhərrəm Zülfüqarlı:** "Prezidentin son aylar qəbul etdiyi inqilabi xarakterli qərarlar daha çox marağa səbəb olub"*



***Vidadi ORDAHALLI***

# Mübahisəli İstanbul seçkisinin ardınca iqtidar və ana müxalifətin davranışları sərtləşir...

**Türkiyədə son bələdiyyə seçkilərinin gərgin keçməsi hələ də siyasi partiyalar arasındakı münasibətləri yumşaltmayıb. Qeyd edək ki, bu gərginliyin pik həddi hakim partiyanın önəmli funksionerlərindən biri sayılan Binəli Yıldırımın CHP-dən olan namizəd Əkrəm İmamoğluna İstanbulda məğlub olması zamanı müşahidə olundu.**

*"Belə vəziyyəti bir dəfə Türkiyə ötən əsrin 80-ci illərində yaşayıb"*

AKP-nin tələbi ilə səslər bir neçə dəfə sayılsa da, son anda bələdiyyə başqanı vəsiqəsi İmamoğluna təqdim olunub. Lakin seçkidən sonra yaşananlar göstərir ki, AKP bu məğlubiyyətin acısını hələ də həzm edə bilmir. Buna sübut kimi birinci hadisə Ərdoğanla İmamoğlunun iştirak etdiyi bir yaz mərasimində müşahidə olundu. Həmin vaxt sırada duranlarla görüşən Ərdoğan İmamoğluna əl uzatmayıb. Bu hadisənin ardınca isə Türkiyədə ana müxalifətin lideri - Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu Ankarada qatıldığı şəhid hərbçi Yener Kırıkcının yas mərasimində kütlənin hücumuna məruz qalıb. Təhlükəsizlik qüvvələrinin əməkdaşları partiya sədrini qəzəbli kütlənin əlindən alıblar. Partiya sədri hadisə yerindən zirehli maşınla uzaqlaşdırılıb.

Daxili işlər naziri Süleyman Soylu müxalifət partiya sədrinə hücumun yol verilməz olduğunu və hadisə ilə bağlı araşdırma aparıldığını bildirib.

Seçkidən sonra CHP liderlərinə qarşı nümayiş olunan bu davranışlar nəyin əlaməti sayıla bilər?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyədə yaşananlar heç də xoş mənzərə deyil:** "Həmin ölkədə Osmanlılardan bu yana biz gözəl siyasi əxlaq nümunələrinin nümayiş edildiyinin şahidi olmuşuq. Artıq son hadisələr göstərir ki, qardaş ölkədə dərin siyasi böhran yaşanır. Hər halda, liderlər buna şərait yaratmamalıdırlar. Çünki belə məsələlər bumeranq effekti verə bilər. Əgər bir adam deyirsə: "Bay Kamal, səni məhkəmələrdə dizin-dizin süründürəcəm", onda sadə tərəfdarlar da belə addım atar da. Xalqın səsi ilə seçilən bir adama əl uzatmamaq da yaxşı qarşılanmır. Ən azı, siyasi etiket buna yol vermir. Yəni türk siyasi arenası bu dərcədəmi deformasiyaya uğrayıb ki, xalqdan böyük səs alan bir liderin şəhərin ortasında vurub ağzını, burnunu partladırlar? Vəziyyətin bu məcrada davam etməsi ölkədə siyasi böhranla yanaşı, ciddi vətəndaş qarşıdurmasına gətirib çıxara bilər. Hətta ideoloji zəmində toqquşmalarla yadda qala bilər. Belə vəziyyəti bir dəfə Türkiyə ötən əsrin 80-ci illərində yaşayıb. Həmin vaxt ideologiyası fərqli olan gənclər küçələrdə bir-birini öldürürdülər. Sonda məsələ o qədər şişdi ki, işə hərbçilər qarışıb gərginliyi aradan qaldıra bildilər. Hazırda Türkiyədə hərbinin elə səlahiyyətləri yoxdur. Hesab edirəm ki, ilk olaraq liderlər kütlə qarşısındakı davranışlarına fikir verməlidirlər ki, sadə tərəfdarlar da onlardan yaxşı örnək götürsünlər.

Çox təəssüflər olsun ki, digər siyasi partiyalar bu məsələyə seyrçi qalırlar. Mən xüsusilə də MHP sədri Dövlət Bahçəlinin bu mövzudakı süstlüyünü anlaya bilmirəm. Hər halda, Türkiyə cəmiyyətini barışa, birliyə çağırmaq lazımdır. Əks halda, biz heç də yaxşı olmayan hadisələrə şahidlik etməli olacağıq".

***Qabil Hüseynli:** "Vəziyyətin bu məcrada davam etməsi ölkədə siyasi böhranla yanaşı, ciddi vətəndaş qarşıdurmasına gətirib çıxara bilər"*



***Məhəmmədəli QƏRİBLİ***

Avropanın ən böyük ölkəsi sayılan Ukrayna yeni dövrə qədəm qoyub. Baş tutan prezident seçkilərində qərbpərəst və daha çox ABŞ-ın adamı kimi tanınan demokrat imicli Prezident Poroşenko böyük səs fərqi ilə siyasi arenaya yeni qədəm qoyan Zelenski soyadlı bir şoumenə uduzdu. Bundan sonrakı illərdə Ukraynanı keçmişi böyük siyasətlə bağlı olmayan bir artist idarə edəcək.

# Poroşenkonun uduzmasına ABŞ-dan inanılmaz seyrçiliyin sirri - Zelenski Qüdsü İsrailin paytaxtı kimi tanıyacağına söz verib(?)



Ancaq seçkiqabağı təbliğat dövründə səslənən fikirlərdən və əsas namizədlərin bir-birinə ünvanladığı qarşılıqlı ittihamlardan belə aydın olurdu ki, seçkinin əsas favoriti olan bu iki namizəd həm ölkədaxili, həm də ölkə xaricində olan qüvvələr tərəfindən ciddi şəkildə dəstəklənib. Hətta ölkənin ən varlı adamları və rəsmi milyarder sayılan iş adamları arasında bu namizədlərin dəstəklənməsi ilə bağlı yekdil fikir olmayıb. Poroşenkonu əslən bakılı olan tatar əsilli milyarder Rinat Əhmədov dəstəkləyirdisə, Zelenskiyə bu estafetdə İqor Kolomoyski adlı milyarder dəstək verirdi. Təsadüfi deyil ki, hətta namizədlərin debatında Poroşenko Zelenskini "İqor Kolomoyski marianeti" adlandırırdı.

Ukraynada qeyd edilir ki, dövlət başçısı postunda Zelenskinin əsas təhlükəli cəhəti onun addımlarının öncədən bəlli olmamasıdır. Komediya ustasının seçkiqabağı proqramının onun prezident seçiləcəyi təqdirdə Ukraynanın gələcəyini təsəvvür etmək üçün kifayət etmədiyi qənaətində olanlar az deyildi. Siyasi komandası, ideologiyası olmayan Zelenskinin dövlət maşınının necə fəaliyyət göstərdiyini bilməməsi ilə bağlı səslənən əsas arqumentlər belə ona Poroşenko üzərində parlaq qələbə qazanmağa mane olmadı. Ancaq proseslərin gedişi həm də onu göstərir ki, Zelenski bu seçkilərdə, eyni zamanda, dünyanı idarə etmək gücündə olan dövlətlərin də dəstəyini ala bilib. Əks halda, bu cür performans nümayiş oluna bilməzdi. Bir detala diqqət etmək kifayət edər ki, bizim yanılmadığımıza əmin olunsun. Prezident seçkilərinin ən qızğın zamanında Zelenskinin əsas dəstəkləyicisi olan milyarder İqor Kolomoyskinin verdiyi müsahibədə səsləndirdiyi fikirlər xüsusilə diqqəti çəkir. Həmin müsahibədə iş adamı bildirmişdi ki, Zelenski seçilərsə, o, mütləq Qüdsü İsrailin paytaxtı kimi tanıyacaq. Siyasi təhlilçilər bu fikrin təsadüfən səslənmədiyi qənaətindədirlər. Hətta bildirilir ki, bu, Zelenskinin hansı qüvvələr tərəfindən dəstəkləndiyinə dair verilən şifrəli mesaj idi. Əslində, bu amil özünü elə seçkidə göstərdi. Çünki ortada nəticə var. Bu nəticə bizə onu deməyə əsas verir ki, Poroşenko əzəli müttəfiqləri olan Avropa Birliyi və ABŞ tərəfindən lazımi şəkildə dəstəklənməyib, başqa sözlə, tarixin ümidinə buraxılıb. Belə olmasaydı, siyasətdə kifayət qədər təcrübəsi, leqal maddi imkanları olan Poroşenko bir şoumenə belə asanlıqla uduzmazdı. Xüsusilə də ABŞ tərəfindən Poroşenkonun mövqeyini müdafiə etmək istiqamətində, demək olar ki, heç bir addım atılmadı. Sanki ABŞ-ın da marağındaydı ki, gələcəkdə Qüdsü İsrailin paytaxtı kimi tanımağa hazır olan bir adam Ukraynanın prezidenti olsun. Çünki bu, hazırkı ABŞ administrasiyası və Trampın marağına uyğun gələn bir mövqedir. Məlumdur ki, bu addımı hamıdan əvvəl Tramp atıb, hətta digər ölkələri də onun ardınca getməyə dəvət etmişdi. Bu baxımdan, nə dərəcədə inandırıcıdır ki, Zelenskinin Qüdsü İsrailin paytaxtı kimi tanıyacağına dair səslənən fikirlər həqiqətə uyğundur və məhz buna görə ABŞ ona prezident seçkilərində lazımi dəstəyi verib? Əksər siyasi təhlilçi bu variantı mümkün hesab edir. Hətta belə fikirlər səslənir ki, Ukrayna qeyri-rəsmi ikinci yəhudi dövləti statusuna yiyələnməyə daha yaxındır.

Bunu onunla arqumentləşdirirlər ki, Poroşenko milliyyətcə yarı yəhudiydisə, Zelenskinin tam yəhudi olduğu bildirilir. Bu baxımdan da yeni prezidentin əsas himayədarı olan Kolomoyskinin seçki öncəsi Qüdslə bağlı verdiyi sözə əməl edəcəyi çox inandırıcı görünür. Hər halda, izləyək və görək...

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, ABŞ prezidenti Donald Trampın məsləhətçisi və kürəkəni Cared Kuşner "Əsrin anlaşması" adlandırılan Orta Şərq sülh planının Ramazan ayından sonra açıqlanacağını bildirib. Ancaq Tramp administrasiyası planın detalları haqqında hələlik açıqlama vermək istəmir. Bununla yanaşı, planın detallarının əvvəlcədən açıqlanacağı bildirilir.**

# ABŞ-ın yeni Orta Şərq planında Azərbaycan və Türkiyə məsələsi...



*"Cənubi Qafqazda ABŞ yeni nizam formalaşdırmağa çalışır və burada Azərbaycana dəstək yer tutur"*

## ***Məhəmməd Əsədullazadə:*** *"Orta Şərq planı Türkiyənin, İranın regionda zəiflədilməsinə və İsrailin təhlükəsizliyinə hesablanıb"*

Fələstinlilər Trampın İsrailin xeyrinə qərarlar qəbul etməsinə görə "Əsrin anlaşması" planına çox soyuq yanaşır. Ancaq Tramp administrasiyası hələ də Fələstin prezidenti Mahmud Abbasın planı dəstəkləyəcəyinə ümid edir. Keçmiş ABŞ prezidenti Barak Obama dövründə İsrail səfiri olmuş Şapiro planın Fələstinin tələblərinin yerinə yetirilməsindən uzaq olacağını, ancaq İsrail hökuməti tərəfindən qəbul edilə biləcəyini deyib. Onu da qeyd edək ki, bu layihənin qısa məzmunu Amerika tərəfindən Yaxın Şərqin yenidən şəkilləndirilməsi adlandırıla bilər. Böyük Orta Şərq layihəsinin hədəfi müsəlmanlar yaşayan və əsasən Osmanlı İmperiyasının ərazisi olmuş bölgələrə yeni sərhəd cızılmasını nəzərdə tutur. Bu layihə ilk dəfə 2003-də ABŞ-ın NATO nəzdindəki Daimi Təmsilçisi R.Nikolas Börns tərəfindən Praqada, ABŞ Dövlət katibininköməkçisi Mark Grosman, o zamankı ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi, sonralar isə Dövlət katibi olmuş Kondaliza Rays tərəfindən ifadə olunub. O da məlumdur ki, İraqa ABŞ müdaxiləsindən sonra bölgədə sabitlik bərqərar olmayıb. 2011-ci ildə başlayan "Ərəb baharı"ndan sonra prosesin mərkəzində Suriya hadisələri dayanır. Kifayət qədər mürəkkəb, ziddiyyətli və riskli geosiyasi mənzərə yaranıb. Bu da lokal, regional və qlobal miqyasda özünü büruzə verir. Yeni Orta Şərq sülh planında nələrin olacağı maraq doğurur. Çünki sözügedən plan bu və ya digər dərəcədə region dövlətlərinə öz təsirini göstərəcək. O səbəbdən ki, bölgədə gedən proseslər bu və ya digər dərəcədə bir-biri ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, ABŞ supergüc olaraq dünyanın geosiyasi baxımdan şəkillənməsində əsas güc mərkəzidir. Trampın verdiyi bir sıra qərarlar sözügedən məsələnin yetərincə ciddi olmağından xəbər verir. Bütün bunlarla yanaşı, Orta Şərq planında Türkiyə və Azərbaycanla bağlı nələr ola bilər? Bununla bağlı hansı ehtimallar mövcuddur?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bununla bağlı bir sıra məqamlara aydınlıq gətirdi:** "Əvvəla, ABŞ-ın Yaxın Şərq planı əsasən 2004-cü ildən məlumdur. Mərakeşdən başlayaraq Çin sərhədinə qədər olan ərazini əhatə edən bu strategiyada yeni kvazi dövlətlərin yaradılması və sərhədlərin dəyişdirilməsi əks olunub. 2011-dən başlayan "Ərəb baharı"nın Şimali Afrikadan başlayaraq digər ərəb ölkələrini əhatə etməsi məhz burada İsrailin təhlükəsizliyinə zəmanət yaradır. Bu plana əsasən, fələstinlilərin Sinay yarımadasına köçürülməsi və İsraildən kənar yeni dövlətin yaradılması nəzərdə tutulur. Qeyd edim ki, Trampın yəhudi əsilli kürəkəni Kuşnerin bu planı Yaxın Şərq planının İsrailə aid olan yeni versiyasıdır. Türkiyə hazırda regionda İsrailin geosiyasi maraqlarını önləyən böyük dövlətdi. Məhz bu planda yeni kvazi dövlət - Kürdüstanın da yaradılması əks olunub. Hesab edirəm ki, Türkiyəyə qarşı hərhansı plan yeni böhrana gətirəcək. Ankara qətiyyətlə bu planın qarşısını alacaq. Təəssüf ki, bu gün Türkiyə hədəfdədir, gələcək perspektivdə parçalanması nəzərdə tutulur. O üzdən, Türkiyəyə qarşı planı Azərbaycan əleyhinə hesab edirəm. Çünki iki qardaş ölkənin milli maraqları ortaqdır. Azərbaycan ABŞ-ın Cənubi Qafazda strateji tərəfdaşıdı. ABŞ çalışır ki, Rusiyanın regionda mövqeyini zəiflətməklə Qarabağ münaqişəsinin BMT qətnamələri əsasında həllinə nail olsun. ABŞ dövlət katibi Pompeonun Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Vaşinqtonda görüş təklifi məhz xüsusi Qafqaz planından irəli gəlir. Cənubi Qafqazda ABŞ yeni nizam formalaşdırmağa çalışır və burada Azərbaycana dəstək yer tutur. Ümumiyyyətlə, Kuşnerin Orta Şərq planı Türkiyənin, İranın regionda zəiflədilməsinə və İsrailin təhlükəsizliyinə hesablanıb".

***Vidadi ORDAHALLI***

# Xalidə Bayramovanın yerli və qeyri-yerli media arasında seçimi - niyə məhz "Meydan TV" seçildi...

***Azər Həsrət:** ”Onun ”Meydan TV” kimi Azərbaycanda fəaliyyətinə rəsmi qadağa qoyulan bir mediaya yazılı açıqlama göndərməsi çox böyük suallar yaradır”*

**Bakı şəhəri 162 nömrəli məktəbin üçüncü mərtəbəsindən özünü atıb intihar edən Elina Hacıyeva adlı məktəblinin faciəsi bütün ölkədə rezonansa səbəb oldu. Həttа bu məsələnin obyektiv araşdırılması üçün ölkə rəhbərliyi sui-qəsd hadisəsi ilə bağlı gedən istintaqı şəxsi nəzarətinə götürdü.**



*”Bir dövlət məmuru bunun fərqinə bizdən də əvvəl varmağa borcludur”*

İstintaqın gedişi zamanı həmin məktəbin direktoru barədə ev dustaqlığına dair qətimkan tədbiri görüldü. Hadisənin elə ilk günlərindən bu mövzuda Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramovanın da adı hallanırdı. Bildirilirdi ki, məktəblinin intihardan sonra ilk videosunu çəkən, onunla sual-cavab edən məhz X.Bayramova olub. Bu səbəbdən də həm medianın, həm də cəmiyyətin X.Bayramovaya çoxlu sayda sualı yaranmışdı. Ancaq təəssüflər olsun ki, bu müddət ərzində ölkədə fəaliyyət göstərən heç bir media quruluşu X.Bayramovadan mövqe öyrənə bilmədi. İki gün əvvəl isə X.Bayramovanın xaricdə fəaliyyət göstərən və yayımı ölkə daxilində məhkəmə qərarı ilə bloklanan "MeydanTV" adlı sayta geniş açıqlama verməsi həm cəmiyyət, həm də jurnalist cameəsi tərəfindən təəccüblə qarşılanıb. Sual yaranır: kifayət qədər yüksək post tutan bir dövlət rəsmisi niyə məhz yayımı ölkədə qadağan edilən KİV-ə müsahibə verməkdə maraqlı olub? Ümumiyyətlə, X.Bayramovanın ürəyini açmaq üçün media nümunəsi seçimini necə dəyərləndirmək olar?

**Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələ onda da böyük heyrət yaradıb:** "Mən bu məsələyə xeyli təəccüblənmişəm. Çünki X.Bayramova bir dövlət məmurudur. Səhv etmirəmsə, hakim Yeni Azərbaycan Partiyasının fəal qadınlarından biridir. Onun "Meydan TV" kimi Azərbaycanda fəaliyyətinə rəsmi qadağa qoyulan bir mediaya yazılı açıqlama göndərməsi çox böyük suallar yaradır. Əgər onda mövqeyini ifadə etməklə bağlı zərurət yaranmışdırsa, bilirsiniz ki, ölkəmizdə media bolluğu var, buradakı KİV-dən birinə belə xahişi edə bilərdi. İnanıram ki, heç kim onun xahişini geri çevirməyəcəkdi, əksinə, maraqlı mövzu olduğu üçün məmnuniyyətlə çap edəcəkdilər. Xalidə Bayramova niyə "Meydan TV"ni seçməsi ilə bağlı yaranmış suala mütləq cavab verməlidir. Çünki hamı bilir ki, həmin media qurumu Azərbaycanda destruktiv bir ortam yaratmaq məqsədilə fəaliyyət göstərir. Xarici mənbələrdən maliyyələşən həmin KİV-in başlıca məqsədi bəlli olduğu və Azərbaycan qanunları ilə uzlaşmadığı üçün, onun ölkə ərazisindəki yayımına qadağa qoyulub. Amma bir dövlət məmuru bunun fərqinə bizdən də əvvəl varmağa borcludur. Bu səbəbdən də hesab edirəm ki, X.Bayramovanın bu hərəkəti ilə bağlı onun çalışdığı dövlət qurumu və üzvü olduğu siyasi partiya araşdırma aparıb, qiymət verməlidirlər. Buna çox ciddi ehtiyac var".

**Doğrudan da X.Bayramovanın özünün mövqeyini bu məsələdə dinləmək çox maraqlı olar. Bəlkə onun açıqlaması bir texniki yanlışlıq ucbatından fərqli ünvana gedib. Yox, əgər bunu bilə-bilə edibsə, niyə etdiyinin izahını eşitmək maraqlı olar. Təəssüflər olsun ki, X.Bayramova ilə əlaqə saxlamaq cəhdlərimiz alınmadı.**

*Məhəmmədəli*
*QƏRİBLİ*

# Bakı küçələrində milyonlarla dollarlıq avtomobillər, evlər - rəsmi milyonçularımız isə "yoxdur"...

**Məlumdur ki, dünyada olan ən varlı şəxslərin siyahısını məşhur "Forbes" nəşri dərc edir. Hər il yenilənən siyahıda biz sürpriz isimlərin adına rast gəlirik. "Forbes"in siyahısında qərarlaşan varlı insanların aktivlərinin bahalaşdığının və ya ucuzlaşdığının şahidi oluruq.**




Hiss edilir ki, dünyadakı biznes mühiti yerində saymır, dinamik olaraq inkişaf edir və çalxalanır. Ancaq nə qədər təəccüblü olsa da, həmin siyahıda biz Azərbaycanda fəaliyyət göstərən biznesmenlərin adına rast gəlmirik. Maraqlı bir paradoks alınır. Əgər burdan çıxan xalqın nümayəndələri pul qazanmağı bacarmırsa, onda niyə hər il "Forbes"in siyahısındakı milyarderlərin siyahısında azərbaycanlıların sayının artdığını görürük?

Ancaq maraqlıdır ki, həmin varlı soydaşlarımız ölkəmizin hüdudları çərçivəsində fəaliyyət göstərməyənlərdi. Gəlin, "Forbes"in tərtib etdiyi Rusiyanın ən varlı 200 biznesmeninin reytinq siyahısına diqqət edək.

Reytinqdə ilk yeri "Novatek" qaz şirkətinin rəhbəri və "Sibur" neft-kimya kompaniyasının səhmdarı Leonid Mixelson tutub. Onun varidatı 24 milyard dollar həcmində qiymətləndirilir. Siyahıda ikinci yerdə NLMK poladəritmə kompaniyasının direktorlar şurasının sədri Vladimir Lisin (21,3 milyard dollar), üçüncü yerdə isə "LUKoyl" neft kompaniyasının prezidenti, əslən azərbaycanlı olan Vahid Ələkbərov (20,7 milyard dollar) qərarlaşıb. Biz həmin sihaıda rəsmən milyarder olan başqa azərbaycanlıların da adına rast gəlirik: Zarah İliyev, Qod Nisanov , Araz Ağalarov, Fərhad Əhmədov və s. Deməli, azərbaycanlılar pul qazana bilir. O halda ölkəmizin sərhədləri daxilində fəaliyyət göstərən iş adamlarının adı niyə həmin siyahıya düşmür ki, biz də onlarla, ölkəmizdəki biznes mühitinin inkişafı ilə fəxr edək? Ölkəmizdəki iş adamlarının adının həmin siyahıda olmaması heç də o anlama gələ bilməz ki, burda varlı adamlar yoxdur. Yoxdursa, bəs o zaman Bakıda dünyadakı varlı şəxslərin qibtə edə biləcəyi villalar, sürülən ən bahalı avtomobillər kimlərə məxsusdur və hansı pulla alınır? Əmlak alqı-satqısı saytlarına nəzər salsaq görərik ki, insanlar dəyəri 10 milyonlarla ölçülən əmlakların alqı-satqısını həyata keçirir. Gömrükdən idxal olunan bahalı avtomobillərlə bağlı araşdırma aparılsa, məlum olar ki, ölkəyə dəyəri 200-300 min dollarla ölçülən ən dəbdə olan avtomobillər gətirilir. Hətta biz Bakının küçələrində dəyəri bir milyonla ölçülən avtomobillərin sürüldüyünün də şahidi oluruq. Təbiidir ki, bunların hamısını üzərində böyük ictimai və dövlət nəzarəti olan məmurlar edə bilməz. İstisna etmirik ki, belə dəbdəbə içində yaşayan və varidadı milyonlarla ölçülən məmurlar da az deyil. Ən azı, mediada ictimailəşən mövzular və təqdim edilən konkret faktlardan bunu görə bilirik. Onların şəffaf fəaliyyətinin olub-olmaması ilə məşğul olmaq əlaqədar qurumların üzərinə düşür. Bizi isə sırf bizneslə məşğul olan iş adamlarının özlərini gizlətməyi maraqlandırır. Bir dəfə Azərbaycanda fəaliyyət göstərən bir iş adamı verdiyi müsahibədə varidadından danışmışdı. Açıq bəyan edirdi ki, gizlədəsi heç nəyi yoxdur, çünki hamısını halal yolla qazanıb. Hətta bir neçə bahalı əmlakının siyahısını da rəsmən açıqlamışdı. Hələ onun özünün açıqladığı siyahı əsasında adı mütləq "Forbes"ə düşməliydi. Maraqlı sual yaranır: Azərbaycanda fəaliyyət göstərən və varidatı milyon və hətta milyardlarla ölçülən iş adamları niyə gəlirləri barədə ictimaiyyətə şəffaf hesabat vermirlər? Bunu etsələr, biz də ən azından belə varlı milli burjuaziyamızın nümayəndələrinin olmasından qürür duyardıq. Bunu etməkdən çəkinirlərsə, deməli, burda hansısa əmma var. Hansı əmmadan söhbət gedə bilər?

Hüquqşünas Fərhad Mehdiyev "Bakı-Xəbər"ə bildirdi ki, bunun bir sıra səbəbləri var:"Mənim təxminimə görə, bunun birinci səbəbi ondan ibarətdir ki, bizdəki böyük biznes sahələrinin çoxu bu və ya digər mənada məmur oliqarxlara bağlıdır. Bu səbəbdən də onlar bu məsələnin ictimailəşməsini qəti istəmirlər. Həmin işi aparan və heç kimin tanımadığı adam milyoner və ya milyarder kimi elan olunandan sonra onun kimliyi araşdırılacaq və gəlib məmurlara bağlantısı çıxa bilər səbəbindən həmin varidatların leqallığı ilə bağlı məlumat verilmir. İkinci səbəb budur ki, Azərbaycan bazarı o qədər də böyük deyil. Bazarın kiçikliyi və investisiya mühitinin hələ tam mükəmməl olmaması yerli varlı iş adamlarının sayının azalmasına səbəb olur. Üçüncü səbəb isə budur ki, ölkədə mərkəzləşmiş idarəçilik sistemi var. Əsas ixrac oluna bilən xammal və material üzərində ya hökumətin, ya da oliqarxların nəzarəti var. Digər ixrac oluna bilən mallarla isə çox gəlir əldə etmək mümkün deyil. Məsələn, nar şirəsi və ya meyvə məhsullarını xaricə satmaqla hansısa iş adamının adının "Forbes"ə düşməsi mümkün deyil".

*Məhəmmədəli*
*QƏRİBLİ*

# Türkiyədə Rusiyanın hərbi bazası, F-35-in əvəzinə rus qırıcıları - regionda yeni geosiyasi vəziyyət, NATO parçalanma ərəfəsində...

**Azərbaycanın da daxil olduğu regionda yaxın tezlikdə geosiyasi müstəvidə proseslərin daha gərgin məcrada inkişafı proqnozlaşdırılır. Bunun əsas səbəbi ölkəmizin əsas müttəfiqi olan Türkiyə və ABŞ arasında gərginliyin yüksələn xətt üzrə davam etməsi, tərəflər arasında iqtisadi, siyasi, hətta hərbi müstəvidə qarşıdurma vəziyyətinin yaranmasıdır.**

Türkiyənin, xüsusən hərbi müstəvidə Rusiya ilə yaxınlaşmaq niyyəti əvvəldən ABŞ-da xoş qarşılanmayıb və bu səbəbdən Vaşinqton ilk olaraq iqtisadi müstəvidə Ankarya sərt zərbələr vurmağa hazırlaşır.

Bununla yanaşı, ABŞ hərbi cəhətdən də Türkiyəni təzyiq altında tutmağı düşünür. Türkiyənin təhlükəsizlik və strategiya üzrə mütəxəssisi Yusuf Alabarda bu təzyiqin Şərqi Aralıq dənizi üzərindən olacağını vurğulayır. Mütəxəssisin sözlərinə görə, son dövrlərdə Şərqi Aralıq dənizində baş verən proseslər Türkiyəyə qarşı hərəkətliliyə işarədir: "Türkiyə çoxistiqamətli şəkildə hədəfə alınıb. Ankaranın başını qatmağa çalışırlar. Ana hədəf isə Şərqi Aralıq dənizidir. Paralel zamanda həm bu bölgəyə, həm də Suriyada Fərat çayının şərqinə hücumlar başlayacaq. Türkiyəni iki cəbhədə birdən sıxıntıya düçar edəcək siyasətin izindədirlər". Alabarda İsrail, Yunanıstan, Cənubi Kipr və Misir ittifaqının Şərqi Aralıq dənizində keçirdiyi hərbi təlimlərə də diqqət çəkib: "Tam da bu nöqtədə S-400 böhranı partlayır. Çünki Türkiyə S-400 sistemlərini bu nöqtəyə yerləşdirsə, həm Suriyada, həm də Şərqi Aralıq dənizində hava üstünlüyünü ələ keçirəcək. ABŞ-dakı hərbi ağıl bunu gördüyü üçün Türkiyənin müdafiəsinin qapıçısız futbol komandası kimi meydanda olmasını görmək istəyir. Türkiyə havadan müdafiəsini təmin etdikdən sonra bölgəyə milli silahlarını yerləşdirərək üstünlüyü daha da yuxarı səviyyəyə qaldıracaq. O zaman Türkiyənin biləyinin bükülməsinin mümkün olmadığını da bilirlər. Şərqi Aralıq dənizində qaynaqlı strateji qasırğa gəlir. Toplum buna hazır olmalıdır. Çünki iki alternativimiz var. Ya hər şeydən imtina edib ABŞ-a bağlı siyasətlə gedən Türkiyə olacağıq, ya da qarşımızdakı divarları yıxıb öz siyasətimizi inşa edəcəyik".



Belə bir vaxtda proqnozlaşdırılır ki, Türkiyə Rusiyadan aldığı silahlar hesabına bölgədə mövqeyini daha da gücləndirə və ABŞ-a lazımi müqavimət göstərə bilər. Bunu Ankarada da aydın sezirlər. Elə bundan irəli gəlir ki, F-35 qırıcılarını ABŞ-dan ala bilməyəcəyini görən Türkiyə artıq Rusiya hərbi təyyarələri ilə maraqlanır. "Defense News" nəşri bu xüsusda yazır: "ABŞ Türkiyəni F-35 hazırlıq proqramından çıxarsa, Ankara Rusiya qırıcılarına üz tutacaq". Qeyd edək ki, ABŞ Müdafiə Nazirliyi aprelin əvvəlində Türkiyənin Rusiyadan S-400 havadan müdafiə sistemi almasını əsas gətirərək F-35 qırıcılarının istehsal proqramındakı fəaliyyətlərini dondurduğunu açıqlamışdı. Bunun əvəzində artıq bəlli olur ki, Türkiyə Rusiya qırıcıları ala bilər. "Habertürk" portalında yer alan məlumatlardan isə belə bəlli olur ki, ABŞ siyasətini dəyişməsə, Türkiyə ərazisində Rusiya hərbi bazası da peyda ola bilər. Portal bu xüsusda yazır: "Bəli, iqtisadiyyatın idarəçiliyi, təhlükəsizlik və xarici siyasət sahələrində bəzi kövrək, təhdid yarada biləcək yerlərimiz var. Ancaq Türkiyənin əlində kozır olaraq istifadə edə biləcəyi çox önəmli bir məsələnin olduğunu da unutmamalıyıq.

Bu məsələ hər həftə görüşdüyümüz, tərkibində milli təhlükəsizlik icmasından şəxslərin də olduğu qrupun son nahar yeməyində müzakirə edildi. Aralarında Vaşinqtonun ən önəmli milli təhlükəsizlik yazarlarının və təqaüdçü yüksək səviyyəli bürokratların da olduğu bu qrupdakı danışıqlar bir neçə ay ərzində baş verə biləcək hadisələr haqqında öncədən ipucları vermişdi.

Son günlərdə ABŞ administrasiyasının milli təhlükəsizlik qurumlarının bütün səviyyələrindən "Rusiyanın qlobal səviyyədə yüksələn təhdidinə qarşı nələr edilməli" sualına təcili cavablar tapılması və bu cavabların hər bir qurumun milli təhlükəsizlik idarəsinə təcili bildirilməsi istəndi. Konqresin Nümayəndələr Palatasının rəhbərliyi də bu müzakirələrə daxil oldu. Demokratların lideri Nensi Pelosinin rəhbərliyilə Konqres nümayəndə heyəti təcili EOROCOM-u (ABŞ Silahlı Qüvvələrinin Avropa Komandanlığı) ziyarət etdi və bu məsələ ilə bağlı birbaşa komandanın özünü dinlədi.

Konqresə yaxın qaynaqlardan sızan məlumatlara görə, həmin görüşdə öncəliklə "Rusiya ilə ABŞ arasında güclənən qlobal rəqabətdə Türkiyənin yeri və nə edəcəyi" məsələsi müzakirə edilib. Vaşinqtondakı milli təhlükəsizlik qurumlarında da müzakirə edilən məsələ öz başlığı etibarı ilə Rusiya olsa da, əslində, Türkiyənin müzakirə edildiyi bildirilir.

ABŞ rəhbərliyi S-400 raketlərilə bağlı çıxarılan F-35 böhranında geri addım atmaq istəməməklə birlikdə, bu prosesinTürkiyənin ABŞ və NATO-dan daha da uzaqlaşaraq Rusiya ilə bir hərəkət etməyə başlaması ilə nəticələnə biləcəyini düşünür və rəhbərlik daxilində bu məsələ ilə bağlı bir narahatlıq və qorxu da var. ABŞ rəhbərliyi daxilində bu məsələ ilə bağlı qorxu yaranmışkən, Ankara tərəfindən bu qorxunu daha da körükləyən bir ağıllı manevr də edilib və Akkuyuda inşa edilən AES-ə yaxın yerdə bir hərbi liman inşa edilməsi fikri ortaya atılıb. Buna formal səbəb olaraq AES-dən çıxacaq nüvə tullantılarını daşıyacaq gəmilərə xidmət etmək göstərilib, lakin eyni zamanda rus hərbi gəmilərinin də burada yerləşə biləcəyinə eyham vurulub.

Gerçəkləşərsə, bu, Suriyadakı Tartusdan sonra rusların Aralıq dənizində ikinci hərbi bazaya sahib olması anlamına gələcək. ABŞ-ın Şərqi Aralıq dənizi ilə əlaqədar strateji manevrlər etdiyi bu günlərdə ruslara Aralıq dənizinə nəzarət baxımından çox önəmli üstünlük verəcək belə bir addımın bu formada gündəliyə gətirilməsi Vaşinqtonda rəhbərlik daxilində xeyli narahatlığa yol açıb. Bu hərbi liman və ya bazada S-400 raketləri də yerləşdirildiyi halda, Rusiya və Türkiyə Aralıq dənizində, Kipr də daxil olmaqla, quş uçuşunu belə görəcək və müdaxilə edə biləcək duruma gələcək. Akkuyuya yaxın olacaq bu hərbi liman və ya baza İncirlik Hərbi Hava Bazasına da sadəcə 230 km uzaqlıqda yerləşəcək. S-400 raketləri radiusu 250 km olan böyük dairədə nə uçarsa-uçsun, onu "görmə" və ona "bağlanma" imkanına sahibdir. Yəni Türkiyə qeyd edilən addımı atarsa, bu, İncirlik Hərbi Hava Bazasından istifadə edən NATO təyyarələri üçün qəbul edilməsi çox çətin olacaq, onları xeyli çətin vəziyyətə sala biləcək bir durum yaratmış olacaq.

Türkiyə bütün bu deyilənləri həqiqətən etdiyi təqdirdə, bəlkə də NATO-dan qopacaq, lakin NATO daxilində də qapadılması mümkün olmayan böyük bir "dəlik" açılmış olacaq.

Aradabir Türkiyəyə qarşı sanksiya tətbiqi təhdidləri səsləndirən ABŞ rəhbərliyi indi, məhz bu üzdən, Ankaranı tam qarşısına almasının yaxşı olmaya biləcəyini də düşünür. Rəhbərlik daxilində bu məsələ ilə bağlı xeyli atəşli, vaxtaşırı səs tonlarının yüksəldiyi müzakirələr davam edir. Elə bu səbəblə, mütəxəssislər hazırda həlli mümkün görünməyən F-35-lər və S-400-lərlə bağlı bəzi həllərin mütləq tapılacağını düşünürlər. Çünki bir qopma olarsa, bundan sadəcə Türkiyənin deyil, ABŞ-ın da böyük zərər görəcəyini və qlobal rəqabətdə Rusiyanın əlinə böyük bir "kozır" veriləcəyini düşünənlər də var Vaşinqtonda".

Bütün bunlar regionda geosiyasi durumun əhəmiyyətli dərəcədə dəyişəcəyini istisna etmir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Avroittifaq komissarının Brüsseldə Paşinyana verdiyi iki "Qarabağ məsləhəti" indi açılır - Ermənistan növbəti diplomatik zərbəni ABŞ-da almaqdan çəkinir...

**Məlum olduğu kimi, bu günlərdə ABŞ Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün növbəti görüşü Vaşinqtonda keçirməyi təklif edib. Azərbaycan tərəfinin açıqlamalarından belə bəlli olur ki, rəsmi Bakı növbəti Qarabağ danışıqlarının ABŞ-da keçrilməsində hansısa problem görmür və buna hazırdır.**

Ermənistana gəlincə, burada verilən açıqlamalar prosesdən İrəvanın narahatlıq keçirdiyini deməyə əsas verir.

Bununla bağlı "Lragir" qəzeti yazır ki, əslində, İrəvan indi təkcə Rusiya yox, Qərb cəbhəsində də Qarabağ məsələsində Azərbaycana uduzduğu üçün belə narahat mövqe nümayiş etdirir. Qəzet xatırladır ki, Qafqaza marağı getdikcə artan Avropa İttifaqı da Ermənistanın mövqeyini qəbul etmir. Qeyd olunur ki, Avropa İttifaqı Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin danışıqlarda tərəf kimi iştirakını rədd edib.

Danışıqlara yaxın mənbə qəzetə bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan mart ayının əvvəlində Brüsselə səfəri zamanı Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Federika Moqerini ilə görüşüb. Görüş zamanı Moqerini Paşinyanın separatçıların danışıqlarda tərəf olması təklifinə qəti etiraz edib. Qəzet yazır ki, ali komissar Ermənistanın baş nazirinə Azərbaycan Prezidenti ilə danışıqları nəticələrini açıqlamamağı və separatçıların danışıqlar prosesinə qoşulması çağırışları etməməyi tövsiyə edib. Nikol Paşinyan da bu tələblərlə razılaşıb. Qeyd olunur ki, ABŞ da eyni mövqedən çıxış edir və bu da beynəlxalq arenada Azərbaycanın maraqlarının daha yaxşı təmin edilməsinin nəticəsidir. Məhz bu səbəbdən İrəvanın ABŞ danışıqlarına elə də isti yanaşmadığı vurğulanır. Elə rusiyalı ekspert Qriqori Trofimçuk da məsələyə eyni prizmadan yanaşır. Vaşinqtonun Azərbaycan və Ermənistan XİN rəhbərlərinin növbəti görüşünün ABŞ-da keçirilməsi haqda təklifini şərh edərkən ekspert vurğulayıb ki, Qarabağ problemi Ağ Evdə heç vaxt unudulmayıb.

Ekspertin sözlərinə görə, ABŞ-da bu münaqişəyə yalnız ATƏT-in Minsk Qrupunun həmsədri Endryu Şeferin formal işi çərçivəsində baxılmır: "Mən uzun müddətdir deyirəm ki, ABŞ Qarabağın statusu ilə birbaşa məşğul olmaq istəyir. Hələ İlham Əliyevlə Nikol Paşinyanın Vyana görüşündən öncə ABŞ ərazisində Qarabağ görüşünün keçirilməsi planlaşdırılırdı. Ancaq Avstriya, məncə, Moskvanı boşuna əsəbiləşdirməmək üçün seçildi. Azərbaycan Prezidenti ilə Ermənistan baş nazirinin ilk görüşünün ABŞ ərazisində keçirilməsi çox böyük siqnal olardı. Bundan sonra Moskva tərəflərə münaqişənin həllində rolunu xatırlatmaq üçün Rusiya, Azərbaycan və Ermənistanın diplomatik nümayəndəliklərinin rəhbərləri səviyyəsində dərhal görüş keçirdi. İndi də ABŞ nazirlər səviyyəsində görüş təklif edərək, öz varlığını vurğulayır". Politoloqun fikrincə, bununla da ABŞ Rusiyaya Qarabağ münaqişəsini həll etməyə hazır olduğunu göstərir: "Xüsusilə də erməni tərəfini təmsil edən kəsin Sarkisyan deyil, ilk gündən Qarabağ məsələsinə diqqət ayıran Paşinyan olduğu bir zamanda... Həm də Paşinyanın danışıqlar başladıqdan sonra dəyişən bəyanatlarına nə Şefer, nə də Vaşinqton diqqət yetirir. Beləliklə, bu məsələ ilə bağlı İrəvan və Vaşinqton arasında bəzi razılaşmaların mövcud olduğunu düşünürəm".

Maraqlıdır ki, elə Ermənistanda da hesab edirlər ki, məhz Paşinyanın gəlişindən sonra İrəvan Qarabağ məsələsində beynəlxalq arenada daha zəif mövqe nümayiş etdirir. Məsələn, Ermənistanın Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bildirir ki, Nikol Paşinyan siyasi və dövlət xadimi kimi Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sarkisyandan geridə qalır. Şarmazanov Paşinyanın öz ideologiyası olmadığı halda ölkənin lideri ola bilməyəcəyinə inandığını deyib: "Məsələn, mən daim erməni parlamentinin sədr müavini olmuş Vahan Ovhanisyandan, Artaşes Tumanyandan, Yuri Baxşyandan, Albert Bazeyandan və Tiqran Torosyandan öyrənməyə çalışmışam. Mən onların səviyyəsinə çatmağa cəhd etmişəm. Qarabağ hərəkatı ilə əlaqəsi olmayan Nikol Paşinyan isə, əvvəlkilərdən fərqli olaraq, həyatı boyunca hər hansı ümummilli, ümumi dövlət işi görməyib. Ona görə də gəlib öz "dump-dump" inqilabını Sərdarabad və Qarabağ döyüşlərinə bərabər tutmaq istəyir".

Şarmazanov həmçinin qeyd edib ki, Nikol Paşinyan tərəfindən Vazgen Sarkisyanın 60 illiyinin təbrik edilməməsi anlaşılmazdır: "Təbrik məktubu olmayıb, siz eşitmisiz? Elə təəssürat yaranır ki, Baş nazir Nikol Paşinyan, Levon Ter-Petrosyan, Köçəryan, Serj Sarkisyan, Baqratyan, Edvard Nalbandyan, Vazgen Sarkisyan səviyyəsinə çatmağa cəhd etmək əvəzinə Qarabağ hərəkatını zəiflətməyə çalışır. Bu gün Qarabağ döyüşçüləri həbs edilib, bu biabırçılıqdır. Köçəryanın həbs edilməsi, Sarkisyanın istefa verməsi Azərbaycanda belə şok yaradıb. Belə vəziyyətdə Qarabağ məsələsində bizim daha zəif mövqedə olmamız bəlkə də təbii xarakter daşıyır". Onun sözlərinə görə, yaranmış durumda Azərbaycan beynəlxalq miqyasda mövqelərini durmadan gücləndirir və bu da Qarabağ münaqişəsinin gedişinə mütləq mənada öz təsirini göstərəcək.

Ümumiyyətlə, Bakı tərəfindən həyata keçirilən uğurlu xarici siyasət dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarının Qarabağ məsələsində ölkəmizə daha çox dəstək verməsi ilə müşayiət olunur. Məhz yürüdülən düşünülmüş siyasətin nəticəsidir ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən ölkəmizin maraqlarına cavab verən çoxsaylı sənədlər qəbul edilib. Bütün bu sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli əsas yer tutur. İndinin özündə də Azərbaycan bu istiqamətdə qətiyyətli mövqeyini və çoxşaxəli fəaliyyətini uğurla davam etdirir. Bu fonda ölkəmizin birmənalı mövqeyi ondan ibarətdir ki, Qarabağ problemi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında öz həllini tapmalıdır. Burada ona da xüsusi diqqət yetrilir ki, Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu durumda işğalçı siyasətini davam etdirən Ermənistanın isə regionda təcrid vəziyyəti dərinləşir. Azərbaycan Ermənistanı təcrid vəziyyətində saxlayır, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən qlobal enerji, nəqliyyat layihələri bu ölkədən yan keçir. Belə vəziyyətdə iqtisadi durumu daha da pisləşən təcavüzkar ölkə bütün diplomatik cəbhələrdə də uduzmaqda davam edir.

Ümumiyyətlə, işğlaçı ölkə yürütdüyü destruktiv siyasət nəticəsində qonşu dövlətlərlə və beynəlxalq ictimaiyyətlə münasibətlərdə hərtərəfli gərginliyə malikdir. Məhz bu durumda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün növbəti görüşünün Vaşinqtonda keçirilməsi məsələsi İrəvanda böyük təlaş yaradır. Burada hesab edirlər ki, Azərbaycan Ermənistana növbəti diplomatik zərbəni bu dəfə Vaşinqtonda endirəcək. Avropa İttifaqından sonda İrəvanın Vaşinqtonda daha bir zərbə alması Ermənistanın Qərbdə mövqelərinin əhəmiyyətli dərəcədə sarsılması deməkdir. Bu həm də Dağlıq Qarabağ məsələsində Azərbaycanın qətiyyətli mövqeyinin növbəti nümayişi sayılır. Belə vəziyyət həm də onun göstəricisi sayılır ki, Ermənistanın və erməni lobbisinin Qarabağ məsələsində beynəlxalq miqyasda baş verən hadisələrə təsiri getdikcə azalır. Əvəzində düşmən ölkədə belə çoxları yazşı başa düşür ki, Ermənistan Azərbaycan, eləcə də Türkiyə ilə problemlərini həll etməyənədək ölkənin beynəlxalq münasibətlərdə ciddi və konstruktiv irəliləyişini gözləməyə dəyməz. İndiki durum isə İrəvanın xarici siyasətini tam iflic vəziyyətinə gətirərək ölkəni seçim imkanlarından məhrum edir. Burada diqqət həm də ona yönəlir ki, yaranmış vəziyyətdə Ermənistanın Qarabağ məsələsində status-kvonu saxlamaq cəhdləri yeni savaşı alovlandıra və beləliklə, Ermənistanı daha böyük problemlər məngənəsinə sala bilər. Bunu Qarabağ münaqişəsinin nizamlanması üzrə indiki danışıqlar prosesinin perespektivlərini qiymətləndirərkən Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun elmi işçisi Aleksandr Skakov da istisna etmir. O, Ermənistanın "168.am" saytına müsahibəsində bu xüsusda bildirib: "Tərəflər ilk təmaslardan etibarən münaqişənin nizamlanması məqəsdilə dialoqa başlanmasına hazırlıq nümayiş etdirdiklərinə görə itələmə prosesi gedir. Bu dialoq başlayıb və davam edir. Lakin fikrimcə, münaqişənin nizamlanması ilə bütün bunların hər hansı bir əlaqəsi yoxdur. Hazırda baş verənlər, heç olmasa, təmas xəttində sakitliyin qorunmasına, Dağlıq Qarabağ münaqişə zonasında müharibənin başlanması ehtimalının daha az olmasına yönəlib". Onun sözlərinə görə, humanitar layihələr davam etməkdə olduğu müddətdə tərəflərin indiki mövqeyi halında təmas xəttində vəziyyət sakit olacaq. Lakin bu, müvəqqəti xarakter daşıyır və istənilən məqamda dayanaraq, toqquşmaların digər dalğası baş verə bilər. "Bu mövqelər mövcud olduğu halda nizamlama prosesini nə gözləyir", deyə səsləndirilən suala Skakov belə cavab verib: "Gələcəkdə müharibənin yenidən başlaması perspektivi var. Hazırda, dediyim kimi, təmas xəttini sakit saxlayan, davam edən başqa proses olduğuna görə bu baş vermir. Lakin bu proses dayana bilər. Belə olan halda qarşılıqlı güzəşt istəyi mühiti olmadığına görə müharibənin başlama ehtimalı artacaq. Ancaq aydındır ki, bu müharibədə üstünlük də Azərbaycan tərəfdə olacaq. Çünki Azərbaycan iqtisadi, hərbi, diplomatik sahədə mövqelərini ötən illər ərzində xeyli gücləndirib. Ermənistan bunu nəzərə alıb, məsələni danışıqlar yolu ilə həll etməyə çalışmalıdır". Məsələnin sülh müstəvisində həlli üçün isə Azərbaycan Ermənistana, hələ ki, şans verib.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Yüz ildən artıqdır ermənilər bütün dünyaya tarixdə baş verməyən qondarma erməni soyqırımı haqqında yalan danışmaqla məşğuldurlar. Təəssüf ki, bu gün erməni yalanlarına şərik olanlar, onların daha geniş miqyasda yayılmasına dayaq duranlar da var. Atalarımız "yalan ayaq tutar, yeriməz" desələr də, erməni yalanı xərçəng sürətilə bütün dünyanı başına götürüb.**

# 1990-cı ilin aprelində Xankəndidə baş verənlərin şahidi olmuş qələm sahibi maraqlı faktlar açır

*Qarabağda nəşr edilən və qondarma erməni soyqırımını təbliğ edən, millətlər arasında ədavət toxumu səpən "Sovetakan Karabax"ın nəşri necə dayandırıldı?*



***Sərtib İslamoğlu:** "Viktor Petroviç, "Sovetakan Karabax" qəzetinin bütün nömrəsi millətlərarası ədavətə, azəri türklərinin təhqirinə həsr edilib. Böyük bir xalqı nalayiq sözlərlə təhqir edən yazılarla doldurulmuş bir qəzetin çapına icazə vermək olmaz"*

24 apreli ermənilər və ermənipərəst kəsimlər qondarma erməni soyqırımının ildönümü olaraq qeyd edirlər. Halbuki, tarixdə belə bir hadisə yaşanmayıb, ermənilər genosidə məruz qalmayıblar. Nəinki türklər, heç qeyri-türklər belə, ermənilərə "gözün üstə qaş var" deməyiblər. Əksinə, Birinci Dünya Müharibəsi və ondan sonrakı dövrlərdə ermənilər öz satqınlıq, xəyanətkarlıq əməllərini işə salaraq özləri başqa xalqlara qarşı genosidin (lərin) həyata keçirilməsində iştirak ediblər. Bunu tarixi faktlar da, sənədlər də, arxiv materialları da sübut edir. Saxta tarix yaratmağa meylli olan ermənilər isə nə arxivlərə, nə də faktlara söykənir, öz yalanlarını yaymaqla məşğul olurlar. Çünki gerçək tarixi faktlar, birmənalı olaraq, erməni saxtakarlığının əleyhinədir.

"Vedibasar" qəzetinin baş redaktoru, tanınmış qələm adamı Sərtib İslamoğlu (Məhərrəmov) ermənilərin Dağlıq Qarabağda, konkret olaraq Xankəndidə törətdiyi əməllər və o qara niyyətlərin qarşısının alınması ilə bağlı diqqətçəkən yazı ilə çıxış edib. "Aprel, 1990-cı il - Xankəndinin sirli günləri" yazısında S.İslamoğlu şahidi olduğu bir sıra hadisələri canlandırıb.

**Aprel, 1990-cı il - 20 Yanvar faciəsindən üç ay sonra...**

Həmin dövrdə Azərbaycan Nazirlər Kabineti yanında Mətbuatda Dövlət və Hərbi Sirləri Mühafizə Edən Baş İdarənin rektoru işləyən Sərtib İslamoğlu qeyd edir ki, 1990-cı il ilin əvvəlləri idi. Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın hamısı ata-baba yurdlarından zorla çıxarılmışdılar: "Bütün Azərbaycan Dağlıq Qarabağ hadisələri ilə əlaqədar ağır günlərini yaşayırdı. Həmin dövrün siyasi dolanbaclarından heç də hamı düzgün nəticə çıxara bilmirdi. Həmin illərdə Azərbaycan Nazirlər Kabineti yanında Mətbuatda Dövlət və Hərbi Sirləri Mühafizə Edən Baş İdarənin rektoru işləyirdim. Xankəndidə fəaliyyət göstərən Respublika Təşkilat Komitəsinin tərkibində erməni dilini bilən mütəxəssisə ehtiyac vardı. Bununla əlaqədar rəhbərlik mənim getməyimin vacib olduğunu dedikdə tərəddüd etmədən razılığımı bildirdim. Bir müddət orada işlədim. Hadisələr gözlərimin önündə baş verib. Bu günün prizmasından həmin günlərə nəzər yetirməklə birbaşa iştirakçısı olduğum hadisələr haqqında oxucularda düzgün təsəvvür yaratmaq istəyirəm.

Bakı-Xankəndi qatarı sonuncu dayanacağını Ağdamda elədi. Dəmir yolunun Dağlıq Qarabağ ərazisindən keçən hissəsi təhlükəli olduğu üçün, erməni quldurlarından ehtiyat edildiyinə görə qatar sonadək gedə bilmədi. Taksiyə oturub Ağdamdan hərbi komendantlığa getdim. Yolda sürücüdən vəziyyəti soruşdum. Dedi ki, dünən ermənilərdən 70-dən çox top tutulub. Ağır xəbər idi. Ətraf rayonlardan səfərbər edilmiş iri traktorları Ağdam RPK-nın qarşısına toplamışdılar. Topları gətirməyə gedəcəkdilər.

Biz hərbçilərin nəzarəti altında Xankəndinə yola düşdük. Maşında MK-nın işçisi, Səhiyyə Nazirliyinin nümayəndələri də vardı. Əsgəran rayonundan keçirdik. Yolun sağında-solunda qırmızı lalələr bitmişdi. Mənə elə gəldi ki, namərd gülləsindən öldürülən ağdamlı qardaşlarımız balaları Əli və Bəxtiyarın qanıdır, yerdən göyərib. Həqiqətən də Vətən uğrunda qanını verən, ölən varsa, Vətəndir. Bir də mənə elə gəldi ki, bu qırmızı lalələr doğma Qarabağımıza doğru uzanan pis niyyətlərə, bəd əməllərə qadağan işarəsi verirdi.

Respublika Təşkilat Komitəsinə təqdim olundum. İlk göstərişləri aldım. İlk baxışdan bir məsələ aydın idi ki, iş çox mürəkkəb və çətin bir şəraitdə gedir. 23 aprel 1990-cı il vilayətin mərkəzi "Sovetakan Karabax", "Xorhdayin Karabax", - "Djraberd" (Mardakert r.), "Dizak" (Qadrut), "Aşxatank" (Martuni) rayon qəzetlərinin son nömrələrini oxudum. Demək olar ki, hər nömrədə "ana Ermənistanla" yenidən birləşmək ideyası əsas xətt kimi verilir. Vilayətdə fövqəladə vəziyyətin

yaradılmasına, silahların yığılmasına qarşı açıq etiraz edilir. Əsas məqsədləri milli ədavəti yaymaq, barışmazlığı təbliğ etməkdir. Sözün açığı, bu qəzetlərin Sovetlər ölkəsində çap edildiyinə, partiya orqanları olduğuna inanmaq çətindir (Deməzsən, işlər başı elə Sovetlər ölkəsinin özü imiş).

Bu gün qəbul otağına yaşlı bir qadın gəlmişdi. Hadisələrə qədər Sumqayıtda yaşayıb. Nəvəsinə çatacaq uşaq pulunun il yarımdır verilmədiyini dedi. Səbəbini soruşduq. Cavab verməmişdən əvvəl ehtiyatla qapıya, pəncərəyə baxdı. Yavaş səslə dedi:

- Nəvəmin atası azərbaycanlıdır. Nəvəm hadisələrdən bir neçə ay əvvəl doğulmuşdur. Adını da Anar qoyduq. İndi burada uşağın pulunu vermirlər ki, bəs, uşağın adı niyə azərbaycanlı adıdır. Bizdə bir "Amaras" adlı xeyriyyə də var. Kasıblara, əl-ayaqda qalanlara əl tutur (qadın bu üzdəniraq cəmiyyətin əsl fəaliyyət dairəsini, ya həqiqətən bilmirdi, ya da...) "Amaras" da uşağa pul vermir. Deyir ki, gedin uşağın adını dəyişin, sonra. Mən qadının danışığında nə isə bir səmimilik duydum. İş yoldaşlarımdan üzr istəyib, qadınla onun öz dilində danışdım. Soruşdum ki, bu hadisələrin səbəbini o, sadə bir insan nədə görür, kimdir günahkar? Qadının cavabını olduğu kimi verirəm:

- Mən Azərbaycan çörəyi ilə böyümüşəm. Yalan danışsam, burnumdan gələr. Bunlar (əli pəncərədən bayırı göstərir, yəni ermənilər - S.İ.) Qarabağı istədilər, burada (Xankəndi - S.İ.) mitinq elədilər. Başa düşmədilər ki, türklər (bütün ermənilər kimi, o da azərbaycanlıları belə çağırırdı) sənə bir metr də torpaq verməzlər. Sonra 200 min türkü Ermənistandan qovdular. Ağdamlı iki oğlanı öldürdülər, sonra da Sumqayıt hadisəsi oldu.

Mən soruşdum ki, sən bu sözləri evinizdə, avtobusda, bazar-dükanda, beş adamın yanında deyə bilərsənmi? Qadının rəngi qaçdı. Əlini sinəsinə qoydu:

- Nə deyirsən, bala, onda biz nəsilliklə gərək həyatımızda keçmiş olaq.

Məsələ aydın idi. Bu yaşlı qadın da minlərlə o biriləri kimi mənəviyyatca girov götürülmüşlərdən idi.

Mardakert rayonundan bir müəllimin dedikləri də yəqin ki, oxucular üçün maraqlı olar:

- Gəlib-gedən quldurları bizim də görən gözümüz yoxdur. Biz əliqabarlı, sadə camaatın bu işlərdə heç bir günahı yoxdur. Bizim bu münasibətimiz Mardakert rayonunun DİŞ-nin rəisi Ovakimyanın ürəyincə deyil. Mən ürək sözlərimi, fikrimi onun atasına da demişəm. Həmin Ovakimyandır ki, bu hadisələrin əvvəlində Əsgəranda 2 cavanın öldürülməsinə görə Əsgəran rayonundan Mardakert rayonuna dəyişildi. İndi bizim özümüzə də qənim kəsilib. Onu mehribançılığa çağırmağım ürəyincə deyil. Ona qarşı tədbir görülməlidir.

## Polyaniçko "qəzetin nəşri dayandırılsın" əmrini verdi

**Sərtib İslamoğlu nə üçün Polyaniçkonun yanına dəvət edilmişdi?**

S.İslamoğlu yazır ki, aprelin 23-də "Sovetakan Karabax" qəzetinin açıq-aşkar düşmənçiliyi təbliğ edən bir neçə nömrəsini götürüb, komendaturada siyasi işlərə rəhbərlik edən polkovnik Bodoquxinin yanına gedib və ondan belə yazıların dərcinə niyə icazə verildiyini soruşub.

"Mənə xeyli diqqətlə baxandan sonra dedi ki, bu işə polkovnik Trunin baxır. O, daxili telefonla Trunini otağına çağırdı. Bizi tanış etdi. Söhbətimizdən aydın oldu ki, Trunin heç erməni dilini bilmir. Polkovnik Bodoquxinə dedim ki, bu gündən "Sovetakan Karabax" qəzetində dərc ediləcək materiallara əvvəlcədən özüm baxmalıyam. İnsafən o, etiraz etmədi. Səhərisi Xankəndidə səs yayıldı ki, şovinist Zori Balayan Qarabağa gəlib. Aprelin 23-ü, axşam saat 8-9 arası hərbçi-zabit qəzeti səhifə şəklində mətbəədən işlədiyim otağa gətirdi. (O vaxtlar Siyasi Maarif Evində işləyən şair Ramiz Məmmədzadə ilə bir otaqda işləyirdik). Rus dilində dedi ki, çapa getməsi üçün imzanızı atın, aparım.

Cavabında dedim:

- Mən materialları oxumamış necə imza ata bilərəm?

Zabit isə:

- Biz həmişə belə etmişik, - dedi. Zabitə bir saatdan sonra gəlməsini dedim. Sonra səhifələri oxumağa başladım. Elə belə də gözləyirdim. Səhərisi aprelin 24-ü idi. İdeoloqları Zori Balayan durmuşdu başlarının üstündə. Ermənilər bütün qəzeti "genosida" həsr etmişdilər. Qəzet "türk"lə başlayıb, "türk"lə də qurtarırdı, ancaq hansı məzmunda, nəticə çıxartmağı oxucunun öhdəsinə buraxıram. Bir saatdan sonra zabit gələndə qırmızı qələmlə xətlənmiş səhifələri ona göstərib dedim ki, qəzet bu yazılarla çapa gedə bilməz. Zabit çiyinlərini azca qısaraq dedi:

- Sizin xəbəriniz varmı ki, işçilər mətbəəni dağıdırlar. Sabah onların "matəm günləri"dir. Qəzet çıxmasa, nə olacağını bilirsinizmi?

- Elə ona görə də olmaz.

Zabit mübahisənin nəticəsiz olacağını görüb, otağı tərk etdi. Bir azdan növbətçi gəlib xəbər verdi ki, 20 dəqiqədən sonra Polyaniçkonun yanında olmalısınız. Görülən işlə əlaqədar hazırladığım arayışı və qəzet səhifələrini götürüb deyilən vaxtda Polyaniçkonun yanında oldum. Hamı toplaşmışdı: - başda Polyaniçko, sağında general Safonov, solunda isə solunda isə general Lelyuşenko orutmuşdular. General Voronin, prokuror Stepankov, KQB-nin sədri Vayko, polkovniklər Boqoduxin, Trunin də orada idilər. Azərbaycanlı ikimiz idik - Ramiz müəllim və mən. Hörmətli oxucu, çalışacağam ki, həmin otaqda olan söhbətləri olduğu kimi sizə çatdıram.

Polyaniçko:

- Redaktor Məhərrəmov, bu nə məsələdir?

- Viktor Petroviç, "Sovetakan Karabax" qəzetinin bütün nömrəsi millətlərarası ədavətə, azəri türklərinin təhqirinə həsr edilib. Böyük bir xalqı nalayiq sözlərlə təhqir edən yazılarla doldurulmuş bir qəzetin çapına icazə vermək olmaz, - dedim və yerimdə əyləşdim.

Mənim sözlərim general Safonovun xoşuna gəlmədi:

- Sən gəlməmişdən qəzetlər çap olunmurdu? Polkovnik Trunin yaxşı da nəzarət edirdi. İndi nə oldu?

Mən dayana bilməyib ikinci dəfə ayağa durub dedim:

- Polkovnik Trunin erməni dilini bilmədiyi üçün, o, "Sovetakan Karabax"da erməni dilində verilən materiallarda nə yazıldığını necə bilə bilər?

Bu sözləri deyib yenicə yerimə oturmuşdum ki, iki metr boyu olan Safonov ayağa durdu və yüksək tonla amiranə şəkildə dedi:

- Mənim zabitimin (polkovnik Trunini nəzərdə tuturdu) pis vəziyyətdə qalması sənin xoşuna gəlir?

Bütün nəzərlərin mənə dikildiyini hiss etdim. Öz torpağımda rus generalının hökm və iddia ilə danışması əzdi məni. Üçüncü dəfə ayağa durub:

- Sizin zabitiniz peşəkar deyil, işini də bilmir, - dedim və yerimə oturdum. Yüngülləşdim, çiyinlərimdən dağ götürüldü elə bil. Ramiz müəllim ehmalca dizimi sıxdı. Dönüb ona baxdım. Çox həyəcanlı idi. Səbəbini otaqda dedi.

Söhbətləri səbrlə dinləyən, müdaxilə etməyən Polyaniçko zəhmli baxışları ilə mənə baxıb sakit səslə dilləndi:

- Arayış yazmısanmı?

- Bəli, hazırdır. Bunu deyib özümlə hazır gətirdiyim arayışı ona təqdim etdim. Otağa ölü bir sükut çökdü. Heç kim danışmırdı.

Azərbaycanda işlədiyi illərdə həmişə Moskvanın mənafeyini müdafiə edən, o vaxtlar onlarla erməni ailəsinin Azərbaycana yenidən qayıtmasına Ə.Vəzirovla bərabər sevinən Polyaniçkonun qəbul edəcəyi qərarı hamı səbrsizliklə gözləyirdi. O isə arayışı oxudu və heç kimin gözləmədiyi halda dilləndi:

- Qəzetin nəşri dayandırılsın.

Mənimlə qabaq-qənşər oturmuş Vayko başını qaldırıb üzümə baxdı və xəfifcə gülümsünərək sağ gözünü qıydı" - deyə S.İslamoğlu bildirir.

**"Sovetakan Karabax"ı almağa gələnlər əliboş qayıdırdılar…**

S.İslamoğlu bildirir ki, aprelin 24-də səhər tezdən qəzet köşklərinə "Sovetakan Karabax"ı almağa gələnlər əliboş qayıdırdılar. O vurğlayır ki, aprelin 24-ü həmin dövrdə Ermənistan SSR Ali Sovetinin qərarı ilə ermənilərin "matəm günü" kimi qeyd olunurdu. "Xankəndinin kənarında bir abidə kompleksi var. Böyük Vətən Müharibəsi illərində həyatlarını qurban verənlərin xatirəsini əbədiləşdirmək üçün qoyulub. Sonradan həmin kompleksə bir əlavə də olub - 1915-1918-ci illərdə guya Türkiyədə ermənilərin kütləvi surətdə qırılması münasibətilə 2-ci abidə. 1988-ci ilin ruslar və ermənilər tərəfindən təşkil edilən Sumqayıt hadisələrindən sonra 3-cü bir əlavə də olub. Bir sözlə, "matəm abidələr ansamblı" yaradılmışdı. Aprelin 24-də minlərlə adam "matəm abidələr ansamblı"nın ətrafında yığışmışdı. Fövqəladə vəziyyətlə əlaqədar mitinqlər keçirməyin qadağan olunduğunu hərbi komandanlığın rəhbərləri "başbilənlərə" dönə-dönə xatırlatsalar da, ermənilər öz işlərini gördülər. Anti-Azərbaycan, antitürk xarakterli qeyri-sağlam əhval-ruhiyyəli mitinqlərdə müxtəlif məzmunlu şüarlar deyildi, çağırışlar edildi…" - deyə S.İslamoğlu vurğlayır.

***İradə SARIYEVA***

# İlk üç ayda Azərbaycanın ixrac strategiyası üçün ziyanlı nəticə - idxal niyə artıb...

**Bu ilin birinci rübündə Azərbaycanın ümumi idxal göstəricilərində ciddi artım qeydə alınıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2019-cu ilin 3 ayı üzrə xaricdən məhsul idxalı 3.135 milyard dollar olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur.**

*”Bu, ölkədən xaricə valyuta axınının çoxalması deməkdir”*

***Fikrət Yusifov:*** *”Ümumi idxalın artması, hər halda, yaxşı mənzərə deyil”*




Məsələ ondadır ki, indiyədək heç vaxt Azərbaycanın orta aylıq idxalı 1 milyard dolları, illik idxal isə 10.7 milyard dolları ötməyib. Həmçinin, indiyədək bir rüb ərzində bu qədər idxal qeydə alınmayıb. İdxalın həcmi sonrakı rüblərdə də bu templə davam edərsə, o zaman ilin sonuna qədər illik ümumi idxalın həcmi 13 milyard dollara yaxınlaşacaq. O da məlum olub ki, burada dövlət sektorunun payı böyüyür. Bu ilin 3 ayında bütün idxalın 38 faizini dövlət idxalı təşkil edib. Ötən il həmin göstərici cəmi 17.8 faiz olub. Özəl sektorda da idxalla bağlı artım var.

Düzdür, ümumilikdə, idxalın artması iqtisadi canlanmaya səbəb olan elementlərdən biri hesab edilir. Çünki bu zaman iqtisadiyyatda canlanma müşahidə olunur və bu, digər sahələrə də öz müsbət təsirini göstərir. Ancaq bunun neqativ tərəfi də var. Bu ondan ibarətdir ki, idxaldan asılılıq getdikcə daha nəzərəçarpacaq olur və bu zaman ölkədən çıxan valyutanın həcmi də artır. Nəticədə xarici valyutaya tələbat yüksəlir. Digər tərəfdən, idxaldan asılılıq artdıqca, dünya bazarındakı qiymət dəyişikliklərindən iqtisadiyyat daha çox təsirə məruz qalır.

O da məlumdur ki, ölkədə qarşıya qoyulan əsas iqtisadi məqsədlərdən biri də idxaldan asılılığın azaldılmasıdır. Çünki idxaldan asılılıq nə qədər azaldılsa, bu bir o qədər ölkənin ümumi iqtisadi inkişafına müsbət təkan verəcək. Ölkənin valyuta ehtiyatları daha da artacaq. İdxaldan asılılığın azaldılmasının əsasında qeyri-neft sektoru üzrə istehsalın genişləndirilməsi dayanır. Bununla bağlı bir sıra tədbirlər görülür. Müxtəlif proqramlar, layihələr qəbul olunub. Sözügedən məsələlərlə əlaqədar büdcədən böyük vəsaitlər ayrılır, investisiyalar qoyulur və s.

Maraqlıdır, bütün bunların fonunda, Azərbaycanda ümumi idxal niyə artır?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, təəssüf ki, ümumi idxalda artım var və bunun səbəblərini müvafiq qurumlar araşdırmalıdırlar:** "Statistik məlumatlar göstərir ki, idxalda ümumi artım var. Bir sıra məhsullar üzrə idxalın həcmi daha böyükdür. Məsələn, ümumi ət idxalı ötən 3 ay ərzində hardasa 40 faizə yaxın artıb. Hesab edirəm ki, idxalın artması səbəblərini aidiyyəti qurumlar araşdırmalıdırlar. Ət idxalının artması ilə bağlı konkret Kənd Təsərrüfatı Nazirliyi və onun tabeliyində olan qurumlar araşdırma aparmalıdırlar. Bunun səbəbləri ortaya qoyulmalıdır ki, nəyə görə bu sahədə belə böyük artım müşahidə edilir. Nəzərə alsaq ki, Azərbaycanın özünü ətlə təmin etmək imkanları böyükdür, o zaman bu sahədə idxalın artması anlaşılan deyil. O cümlədən, taxılla bağlı da ciddi problemlər var və idxaldan asılılıq yetərincə böyükdür. Bu baxımdan hesab edirəm ki, idxalın artması ilə bağlı məsələlər ən xırda incəliyinə qədər araşdırılmalıdır. Burda olan müəyyən incəlikləri kənardan baxmaqla görmək mümkün deyil. İdxalın artması ölkədən xaricə valyuta axınının çoxalması deməkdir. Eyni zamanda, bu bizim götürdüyümüz iqtisadi kursa uyğun deyil. Hazırkı seçdiyimiz iqtisadi kurs qeyri-neft sektorunu sürətlə inkişaf etdirmək, idxalı əvəzləyən məhsulların istehsalını artırmaqdır. Ən başlıcası, biz qeyri-neft məhsullarının daha çox ixrac olunmasını istəyirik. Bu istiqamətdə bir sıra qərarlar qəbul edilib. Bütün bunların fonunda, ölkədə ümumi idxalın artması, hər halda, yaxşı mənzərə deyil. Bunun səbəbləri geniş şəkildə araşdırılsa, o zaman hansı qərarların qəbul olunmasının zəruriliyi ortaya çıxacaq. Ona görə də müvafiq qurumlar buna son dərəcə ciddi yanaşmalı və hərəkətə keçməlidirlər".

***Vidadi ORDAHALLI***

# Bankomatların banklararası xidməti pullu həyata keçirməsi əhalini narazı salır, çünki pul itirilir...

**Azərbaycanda, demək olar ki, hər kəs plastik kartdan istifadə edir. Ən çox istifadə olunan xidmət də bankomatdan nağd pul çıxarmaqdır. Təəssüf ki, hər plastik kartın öz bankomatını isə istənilən yerdə tapmaq olmur. Buna görə də insanlar məcbur qalıb başqa bankomatdan nağd pul çıxarırlar.**

*”Hazırda bazar liberal deyil, rəqabət mühiti zəifdir”*

***Rəşad Həsənov:*** *”Dövlət sektoruna məxsus iş yerlərinin əməkhaqqının iki bankın kartlarına həvalə olunması bu sahədə yaşanan problemi daha da dərinləşdirir”*



Bəzi hallarda bir şəxsin əməkhaqqı çıxardığı bankomat onun yaşadığı yerin yaxınlığında yoxdursa, o zaman həmin şəxs məcbur olub başqa bankomatdan nağd pul çəkir. Bu zaman isə yüksək faizlə komissiya haqqı tutulur. Təbii ki, bu halda itirən yalnız vətəndaşlardır.

Araşdırmalar nəticəsində həm də məlum olur ki, bəzi bankların plastik kartları ilə başqa bankomatdan nağd pul çıxaranda 3-4 faiz komissiya haqqı tutulur. Onlardan bir neçəsini misal olaraq göstərək. "ASB Bank"ın plastik kartı ilə "Ata Bank", "Amrah Bank", "AG Bank", "AFB bank" və başqa bir neçə bankın bankomatından pul çəkərkən 3 faiz komissiya haqqı tutulur. "Caspian Development bank", "Ekspressbank" və başqa bir neçə bankın kartı ilə istənilən başqa bankomatdan istifadə edərkən 3 faiz tutulur.

**Məsələ ilə bağlı məlumat verən iqtisadçı-ekspertt Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, banklar mövcud vəziyyətdə öz mənafelərini qorumağa çalışırlar.** Bu başadüşüləndir. Nəzərə almaq lazımdır ki, hər bir bankın özünün bankomat sayı, müştəri potensialı, bankomatlara yerləşdirilən məbləğlər barədə məlumatı var: "Hazırda bazar liberal deyil, rəqabət mühiti zəifdir. Rəqabət mühiti zəif olduğu təqdirdə yüksək komissiyaların tətbiq olunması başadüşüləndir. Çünki banklar bazara uyğun olaraq müəyyən siyasət həyata keçirirlər. Burada vətəndaşın narazılığı bank üçün predmet deyil. Bank qanunu pozarsa, bu zaman vətəndaşın narazılığı bank üçün problem yarada bilər. Ancaq qanunsuz hər hansı bir davranış yoxdursa, o zaman bank vətəndaşın narazılığından çox, öz müştərilərinin hüquqlarını, özünün maliyyə təminatının dayanıqlığını və iqtisadi maraqlarını nəzərə alır. Onu da nəzərə almaq lazımdır ki, dövlət sektoruna məxsus iş yerlərinin əməkhaqqının iki bankın kartlarına həvalə olunması problemi daha da dərinləşdirir. Digər banklara da imkan yaradılmalıdır ki, ölkə vətəndaşları mövcud şəraitdən daha səmərəli istifadə edə bilsinlər. Sadəcə "Kapital Bank"ın kartlarına əməkhaqqının köçürülməsi digər 28 bankın bankomatlarının səmərəsiz formada fəaliyyətinə səbəb olur. Əməkhaqqının verilməsi zamanı bir neçə bankın bankomatlarının qarşısında uzun-uzadı növbə yaranır. Bu problemin qarşısını almaq üçün aidiyyəti qurum bu məsələyə xüsusi nəzarət etməlidir".

***Günel CƏLİLOVA***

# Yanmış "Diqlas"ın yanındakı məşhur "Cin bazarı"nda hər şey baş verir, ancaq bazarın kimə aid olduğu bilinmir...

**Bakının 8-ci km deyilən ərazisində olan kənd təsərrüfatı bazarının ətrafında sən demə, "Cin bazarı" deyilən bir bazar da fəaliyyət göstərirmiş. Həmin bazarda ticarət fəaliyyətilə məşğul olan Quliyev Manaf Əyyub oğlu adlı vətəndaş redaksiyamıza müraciət edərək bildirib ki, uzun illərdir orada alış-verişlə məşğul olub ailəsini dolandırırmış: "Mənim heç bir əlavə qazancım yoxdur.**





***Manaf Quliyev:*** *"Sonra bir kvadratyarımlıq yerin aylıq xərac pulunu 550 manata qaldırdılar"*

***Etibar Məmmədov:*** *"Yaxşı oğlandır, çağırdım gəlsin yanıma. Məsələsini yoluna qoyarıq"*

***Nizami Rayon İcra Hakimiyyəti:*** *"Yaxşı olardı ki, siz bunu həmin bazarın özü ilə əlaqə saxlayıb maraqlanasınız"*

Bakı şəhərində kirayədə qalıram, himayəmdə iki azyaşlı övladım var. Sizə təqdim etdiyim fotoda gördüyünüz, üstü ağ çadırla örtülən yer mənə məxsus olub. Bir aya kimi düz yolun kənarına qoyulan taxtanın üstündə alver etmək üçün ayda 350 manat pul ödəyirdim. Sonra bir kvadratyarımlıq yerin aylıq xərac pulunu 550 manata qaldırdılar. Bu, "Diqlas" ticarət mərkəzindəki yanğından sonra baş verdi. Çünki eyniadlı "Cin bazarı" həmin ticarət mərkəzinin arxasında da vardı. Yanğın zamanı ora kül olduğundan, bu bazara tələbat artdı. Ona görə də bizdə qanunsuz üsullarla yığılan pulun məbləğini qaldırdılar. Mən pulu ödəyə bilmədiyim səbəbindən həmin bazardan qanunsuz xərac toplayan Məmmədov Etibar adlı şəxs mənim yerimi başqasına satıb. İndi məni həmin bazarda hətta qanunsuz pul ödəməyin müqabilində belə alver etməyə qoymurlar. İradımı bildirəndə Etibar tərəfindən təhqir edilirəm. Mənə açıq formada deyir ki, sənin yerin üçün o qədər yalvaran var. Sizdən xahiş edirəm mənə kömək edəsiniz. Çox çətin bir duruma düşmüşəm. Uşaqlarım, demək olar ki, acından ölür".

**Biz mövzunu araşdırmaq üçün "Cin bazarı"ndan pul yığdığı bildirilən Etibar Məmmədovun özü ilə əlaqə saxladıq.** İlk andaca ciddi-cəhdlə bizimlə görüşmək istədiyini bildirən Etibara bildirdik ki, elə telefon vasitəsilə münasibət bildirməsi yetərli olar. Əvvəl Etibar dedi ki, orada pul yığmır. Ola bilər ki, onu səhv salırıq. Sonra bizdən şikayət edənin adını soruşdu. Dedi ki, onunla danışandan sonra bizimlə əlaqə saxlayacaq. Bir qədər sonra zəng edən Etibar dedi ki, Manafı tanıyıb: "Yaxşı oğlandır, çağırdım gəlsin yanıma. Məsələsini yoluna qoyarıq. İstəyirsiniz siz də gəlin görüşək, yaxından tanış olaq. Məni burda hamı tanıyır. Bazarda pərdə dükanım var. Hər halda sözümü eşidərlər".

**Qanunsuz fəaliyyət göstərən "Cin bazarı" ilə bağlı məsələyə aydınlıq gətirmək üçün Nizami Rayon İcra Hakimiyyətinin informasiya təminatı və təhlil sektorunun müdiri Cavid Qafarovla əlaqə saxladıq.** O, qəzetimizə açıqlamasında bildirdi ki, bu məsələnin onlara heç bir aidiyyəti yoxdur:



"Yaxşı olardı ki, siz bunu həmin bazarın özü ilə əlaqə saxlayıb maraqlanasınız. Çünki deyilən yer bazarın ərazisinə aiddir. Oradan pul yığılırsa da, bazar tərəfindən toplanır. Bununla bağlı bizə hər hansı şikayət daxil olmayıb".

8-ci km bazarından isə bizə bildirdilər ki, onların fəaliyyət sahəsi arasında "Cin bazarı" deyilən xidmət yoxdur. Onda isə maraqlıdır, heç kimin sahib çıxmaq istəmədiyi və hər gün külli miqdarda pulların toplandığı, heç bir verginin ödənilmədiyi "Cin bazarı" kimə məxsusdur?

***Məhəmmədəli QƏRİBLİ***

# "Azercell"in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyilə "TechCentrum" "Data Science" üzrə 3 aylıq təlimlərə başlayıb

**"Azercell Telekom" MMC və "PAŞA Bank"ın dəstəyilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkəmizdə İT sektorunun inkişafına, eləcə də bu sahədə gənclərimizin peşəkarlığının artırılmasına yönəldilmiş layihə və tədbirlərin həyata keçirilməsinə hər zaman xüsusi diqqətlə yanaşır.**

Mərkəz İT sahəsinə olan marağı, eyni zamanda, mütəxəssislərin azlığını nəzərə alaraq, aztəminatlı və tədrisə yetərli büdcəsi olmayan seçilmiş tələbələr üçün "TechCentrum" platformasının təşkilatçılığı ilə "Data Science" təlimlərinə başlayıb. Təlimlər həftədə 2 dəfə olmaqla, 90 dəqiqə ərzində Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində keçirilir. Təlimçi Kamil Ələsgərov tərəfindən keçirilən sessiyalar 3 aya qədər davam edəcək. Təlimlərdə təsviredici və inferensial statistikanın, riyazi analiz və xətti cəbrin ümumi təkrarı, komanda sətri (cmd) ilə işləməyin əsasları, verilənlər bazaları, SQL DML ilə tanışlıq, Python, R və OOP, data strukturları, datanın daxil edilməsi, təmizlənməsi, formatın uyğunlaşdırılması, mövcud olmayan (missing) məlumatlara yanaşma və bir sıra digər vacib mövzular əhatə olunacaq.

Məlumat üçün bildirək ki, təlimçi Kamil Ələsgərov bank sektorunda data analizi və risqlərin idarə edilməsi sahəsi üzrə 10 illik iş təcrübəsinə malikdir. ADİU, Xəzər və ADA universitetlərində "Statistika, Ekonometrika və Əməliyyatların tədqiqi"ni (Operations Research) tədris edən Kamil Ələsgərov "Baker Tilly Azerbaijan" şirkətində risq sahəsi üzrə layihə meneceridir və Azərbaycan maliyyə sektorunda "Data Science"in tətbiqi ilə məşğuldur.

Qeyd edək ki, "TechCentrum" inkişafda olan texnologiyalar sahəsində təhsil, karyera və inkişaf imkanlarının mübadiləsi məqsədilə yaradılmış platformadır. Üçaylıq fəaliyyəti nəticəsində "TechCentrum" platforması 700-dən çox iştirakçıya "Data Science" və "Data Engineering", "Cpython", "Data Products Management" üzrə təlimlər və vebinarlar təşkil edib, "Facebook" kimi böyük "Tech" şirkətlərində İT üzrə iş imkanları, təhsil, təcrübə və yay məktəbləri ilə bağlı informasiya mübadiləsi həyata keçirib.

Təlimlər barədə əlavə məlumat üçün techcentrum.az@gmail.com ünvanına müraciət edə bilərsiniz.

# Ödəniş terminalları köhnə kağız pulları niyə qəbul etmir...

**Müasir dövrdə insanlar ödənişi onlayn və nağdsız formada həyata keçirməyə üstünlük verirlər. Hər hansı sahədə ödəniş və ya telefon balansına kontur yükləmək üçün əksər hallarda ödəniş termillarının xidmətlərindən istifadə olunur. Demək olar ki, dövlət qurumlarının, kredit və sığorta təşkilatlarının, informasiya və kommunikasiya texnologiyaları şirkətlərinin ödəniş terminalları mövcuddur.**




Bəzi hallarda ödəniş terminalları yeni pullardan fərqli olaraq, köhnə əskinasları qəbul etmir. Təbii ki, bu hal vətəndaşların haqlı narazılığına səbəb olur. Sakinlərin bir çoxu ödəniş terminallarının köhnə pul qəbul etməməsindən şikayətçidirlər. Onlar qeyd edirlər ki, terminalların şax olmayan pulu qəbul etməməsi onların vaxt itkisinə səbəb olur.

Bu halla ödəniş terminalının olduğu istənilən yerdə rastlaşmaq olar. Qeyd edək ki, Azərbaycanda "MilliÖN" və "E-manat" terminalları geniş yayılıb. Demək olar ki, bütün metro stansiyalarında, dayanacaqlarda, marketlərdə bu terminallara rast gəlmək mümkündür. Bakının istənilən böyük marketində və müxtəlif məntəqələrində ödəniş terminalı mövcuddur.

Məlumat üçün bildirək ki, Azərbaycandakı ödəniş terminalları, əsasən, "Sumqayıt Texnologiyalar Parkı" MMC-nin (STP) istehsalıdır.

**Ödəniş terminallarının nə səbəbdən köhnə, şax olmayan pul, əskinasları qəbul etməməsinin səbəbi barədə məlumat verən adıçəkilən şirkətin İnformasiya texnologiyaları departamentinin direktoru İslam Rzayev qeyd etdi ki, bu avadanlıqlar ABŞ və Avropanın tanınmış keyfiyyətə nəzarət qurumlarının sertifikatlarına malikdirlər və onların daxilində mükəmməl əskinas tanıma cihazları quraşdırılır:** "Odur ki, terminalların əskinasları tanımaması və onları geri qaytarması problemi STP-dən qaynaqlanmır. Ola bilsin ki, bu terminallardan istifadə edən dövlət və özəl qurumlar daxil edilən əskinasların vəziyyəti ilə tətbiq etdikləri proqram təminatında müəyyən tələblər qoyurlar. Hansısa dərəcədə cırılmış və yaxud əzilmiş əskinasların qəbul edilməməsi barədə cihazlara göstərişlər verilir və son nəticədə insanlar əziyyət çəkirlər.

Hazırda STP-nin istehsal etdiyi terminallar "Easypay" şirkət, "Express Bank" ("Expresspay") və "Kapital Bank" ASC-lər tərəfindən istifadə olunur: "Onların terminalları ilə bağlı istehlakçıların düşüncələri müsbətdir".

***"MilliÖN" terminallarının məxsus olduğu "Comtec" MMC - Ülviyyə Əfəndiyeva:*** *"Terminallarda quraşdırılmış proqram təminatı həm cırılmış və əzik, həm də şax vəziyyətdə olan pulların qəbuluna imkan vermir"*

***İslam Rzayev:*** *"Terminallar ABŞ və Avropanın tanınmış keyfiyyətə nəzarət qurumlarının sertifikatlarına malikdirlər"*

***Natiq Cəfərli:*** *"Qanunvericiliyə əsasən, Azərbaycan Respublikası ərazisində pulun qoruyucu nişanı və seriya nömrəsində heç bir zədə yoxdursa, həmin əskinas istifadəyə yararlıdır"*

**"MilliÖN" terminallarının məxsus olduğu "Comtec" MMC-nin Müştəri xidmətləri şöbəsinin rəhbəri Ülviyyə Əfəndiyeva qeyd etdi ki, terminallarda quraşdırılmış proqram təminatı həm cırılmış və əzik, həm də şax vəziyyətdə olan pulların qəbuluna imkan vermir:** "Bu proqram təminatı saxta pulların terminallara daxil edilməsinin qarşısını almaq məqsədi daşıyır. Müştərilərimiz bundan əziyyət çəksə də, hər halda, təhlükəsizlik baxımından bunu tətbiq etməyə məcburuq".

**İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, qanunvericiliyə əsasən, Azərbaycan Respublikası ərazisində pulun qoruyucu nişanı və seriya nömrəsində heç bir zədə yoxdursa, həmin əskinas istifadəyə yararlıdır.** Zədəsi olmayan istənilən pul vahidi istənilən ödəmə məkanlarında qəbul olunmalıdır: "Ödəniş terminallarına nəzarət edən, onun proqram təminatını həyata keçirən şirkətlər ölkə qanunvericiliyini nəzərə almalıdırlar. Bu səbəbdən də şirkətlər həmin terminallarla bağlı yenilənmə etməlidirlər ki, insanlar əziyyət çəkməsinlər. Şax olmayan pulun ödəniş terminalı tərəfindən qəbul olunmaması problemi ilə mən də üzləşmişəm. Bu həm əlavə vaxt itkisinə, eyni zamanda, insanların boş yerə stress keçirməsinə səbəb olur. Əslində, bu, vətəndaşın problemi deyil. Əskinasın üzərində seriya nömrəsi və qoruyucu nişanı varsa, istənilən ödəmə nöqtəsində həmin pul qəbul olunmalıdır. Proqram təminatına müəyyən düzəlişlər etməklə ödəniş terminalları şax olmayan əskinasları da qəbul edə bilər".

*Günel CƏLİLOVA*

# Birinci rübdə 1 milyard 672 milyon manat vergi - qeyri-neft sektoruna düşən pay 70 faizi ötdü...

## Vergilər Nazirliyi 2019-cu ilin 1-ci rübünə aid daha hansı rəqəmləri açıqladı?

**Vergilər Nazirliyi dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergitutma bazasının genişləndirilməsi, səmərəli vergi inzibatçılığının və vergi nəzarətinin həyata keçirilməsi, vergi qanunvericiliyinə edilmiş dəyişikliklərdən irəli gələrək vergi uçotunun düzgün qurulması sahəsində fəaliyyətini davam etdirir.**




Nazirliyin Media və Kommunikasiya Mərkəzindən "Bakı Xəbər"ə verilən məlumata görə, 2019-cu ilin 1-ci rübündə dövlət büdcəsinə Vergilər Nazirliyi tərəfindən 1 milyard 672,9 milyon manat vergi səfərbər edilib, proqnoza 110,4% əməl olunub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16,5% və ya 236,4 milyon manat çox vəsait toplanıb.

Ödənilən vergilərin 30,9%-i neft-qaz sektorunun, 69,1%-i qeyri-neft-qaz sektorunun payına düşüb. Qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmalarının artımı 18,3% təşkil edib.

Vergi daxilolmalarında qeyri-dövlət sektorunun xüsusi çəkisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,6% artaraq 76,5%-ə çatıb. Qeyri-neft-qaz sektorunun özəl bölməsindən vergi ödəmələri 20,6% artıb, onun qeyri-neft vergilərində xüsusi çəkisi 76,7%-ə, cəmi vergi daxilolmalarında xüsusi çəkisi 53%-ə yüksəlib.

2019-cu ilin 1-ci rübündə regionlardan vergi daxilolmaları artaraq 168,4 milyon manat təşkil etməklə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,3% çox olub. Bu zaman mərkəzləşdirilmiş daxilolmalar nəzərə alınmadan, regionların daxili potensialı üzrə daxilolmaların həcmi daha böyük həcmdə - 40,4% artıb. Regionlardan daxilolmaların cəmi vergi daxilolmalarında xüsusi çəkisi isə 10,1%-ə yüksəlib.

2019-cu ilin əvvəlindən məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta üzrə daxilolmaların yığılması Vergilər Nazirliyinin funksiyalarına aid edilib. Cari ilin 1-ci rübünün yekunlarına görə, məcburi dövlət sosial sığortası üzrə daxilolmalar 582,1 milyon manat olmaqla 110,8%, işsizlikdən sığorta üzrə daxilolmaların məbləği 22,8 milyon manat olmaqla 117,3% icra olunub.

2019-cu ilin I rübündə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 25.536(3.270 hüquqi şəxs, 22.266 fiziki şəxs) olub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 25,5% çoxdur. Qeydiyyatdan keçmiş vergi ödəyicilərinin 52,2%-i regionların payına düşüb.

Hesabat dövründə 11.232 təsərrüfat subyekti (obyektinin) qeydiyyatdan keçib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 73,2% çox olub. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 4.033 olub ki, bu da 2018-ci ilin müvafiq dövrünə nisbətən 4,8 dəfə çoxdur.

2019-cu ilin 1-ci rübündə vergidən yayınma hallarına son qoyulması, "kölgə" iqtisadiyyatının aradan qaldırılması, şəffaflığın təmin edilməsi, vergi ödəyicilərində uçotun düzgün aparılması və vergilərin tam şəkildə dövlət büdcəsinə ödənilməsi istiqamətində nəzarət tədbirləri davam etdirilib, aksizli malların dövriyyəsinə vergi nəzarəti gücləndirilib. 2019-cu ilin 1-ci rübünün yekunlarına görə, aksizli malların istehsalına və dövriyyələrinə nəzarətin artırılması hesabına alkoqollu içkilərin istehsalında dövriyyə 1,7 dəfə, tütün məmulatlarının istehsalında isə dövriyyə 7,4 dəfə artıb.

2019-cu ilin 1-ci rübündə vergi ödəməkdən yayınma faktları üzrə istintaq olunan cinayət işləri üzrə vurulmuş ziyandan 7,4 milyon manat məbləğin ödətdirilməsi təmin edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çoxdur.

Vergilər Nazirliyi vergi nəzarətinin səmərəliliyinin artırılması məqsədilə vergidən yayınma hallarının müasir informasiya texnologiyaları vasitəsilə aşkar etməklə onların elektron qaydada idarə olunması, səyyar vergi yoxlamalarının risq meyarları əsasında təyin edilməsi, mövcud risqlərin alqoritmlərlə daha dəqiq qiymətləndirilməsi və vergi potensialının effektiv dəyərləndirilməsini təmin edir.

2019-cu ilin 1-ci rübündə açılmış yoxlamaların sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 86,9%, başa çatdırılmış yoxlamaların sayı isə 75,2% azalsa da, yoxlamalarla hesablanmış əlavə vəsaitin məbləği cəmi 3,7% azalıb. Bir yoxlamaya düşən dövriyyənin məbləği isə əvvəlki dövrlə müqayisədə 47.7% artıb.

2019-cu ilin 1-ci rübündə vergi borcu 14 milyon 624,0 min manat olan 1.858 sayda vergi ödəyicisi və vəzifəli şəxslərin məhkəmə qərarı əsasında ölkədən getmə hüququ məhdudlaşdırılıb ki, bunun nəticəsində də borcun 50%-dən çoxu dövlət büdcəsinə ödənilib.

Cari ilin I rübü ərzində 21.874 sayda təqdim edilməmiş bəyannamələrin alınması təmin edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 74,9% artım deməkdir. Borclu vergi ödəyicilərinin 95%-dən çoxu inzibati tədbirlər həyata keçirilmədən, məhz vergi orqanları tərəfindən aparılmış məlumatlandırma tədbirləri nəticəsində könüllü şəkildə ödəniş edib.

**Son zamanlar paytaxt ərazisində restoranların fəaliyyətinə ciddi nəzarət var. Xüsusilə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi restoranların havanı çirkləndirməsinə qarşı sərt mübarizə apararaq, lazımi nəticələrə gəlməkdədir.**

*”Bəzi obyektlər var ki, onlar kiməsə güvənərək adıçəkilən qurğunu restorana quraşdırmırlar”*

# Bakı və Sumqayıtda bir neçə restoran Ekologiya Nazirliyinin təqdimatı ilə qapadıla bilər

***Əliməmməd Nuriyev:*** *”Dəfələrlə edilən xəbərdarlığa əməl etməyən iaşə obyektlərinin bağlanması ilə bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırılmalıdır”*



Ölkə başçısının sərəncamı ilə Ekologiya və Sərvətlər Nazirliyi məhkəməyə müraciət etmədən havanı çirkləndirən, müvafiq təmizləyici qurğu quraşdırmayan restoran sahiblərini cərimələyə bilər. Bu xüsusda müəyyən addımlar da atılıb. Belə ki, ETSN tərəfindən Bakı, Sumqayıt, Gəncə və Abşeron yarmadasında müasir standartlara uyğun təmizləyici qurğuları olmayan, havanı çirkləndirən iaşə obyektləri, atmosferə atılan tullantılarla bağlı monitorinqlər aparılıb. Aparılan monitorinq zamanı atmosferi çirkləndirən iaşə obyektlərinin adları ictimaiyyətə açıqlanır. Bəzi restoranlar ETSN-in məlum xəbərdarlığına əməl etsə də, bir qismi hələ də qurğu quraşdırmayıb.

ETSN-in aparat rəhbəri Vüqar Kərimov media nümayəndələrinə açıqlamasında qeyd etdi ki, havaya atılan tullantıların qarşısının alınması üçün qurğular quraşdırmayan 4 ictimai iaşə obyektinin fəaliyyəti dayandırıla bilər. Onun sözlərinə görə, Bakı və Sumqayıt şəhərlərində keçirilən monitorinq zamanı təmizləyici qurğular quraşdırmayan 4 obyekt müəyyənləşib: "Həmin obyektlər Sumqayıtda "Green House", "Dədə Qorqud", "Qubadlı" şadlıq sarayları və Bakıda "Qədim Şəki" restoranıdır. Nazirlik tərəfindən həmin obyektlərə icrası məcburi göstəriş verilib. Göstərişə əməl olunmasa, həmin obyektlərin fəaliyyəti dayandırıla bilər".

Dəfələrlə xəbərdarlığa əməl etməyən iaşə obyektləri ilə bağlı nə kimi tədbirlər görülə bilər?

**Mövzu ilə bağlı hüquqşünas Əliməmməd Nuriyevə müraciət etdik. Ə.Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dəfələrlə edilən xəbərdarlığa əməl etməyən iaşə obyektlərinin bağlanması ilə bağlı müvafiq qurumlar qarşısında məsələ qaldırılmalıdır:** "Atmosferə atılan zərərə görə ilk dəfə xəbərdarlıq olunur, sonra pul cəzası kəsilir, daha sonra həmin müəssisənin fəaliyyəti dayandırılmalıdır. Hesab edirəm ki, dəfələrlə edilən xəbərdarlığa məhəl qoymamaq o deməkdir ki, həmin restoranlar qəsdən hava təmizləyici qurğunu quraşdırmırlar".

Hüquqşünas onu da vurğuladı ki, bəzi obyektlər var ki, onlar kiməsə güvənərək adıçəkilən qurğunu restorana quraşdırmırlar: "Həmin obyektlərin arxasında əsasən vəzifəli şəxslər dayanır. Restoran sahibləri həmin şəxslərə arxalanaraq qurğunu quraşdırmağa əhəmiyyət vermirlər. Bu səbəbdən də həmin obyektlərlə bağlı sərt tədbir görülməlidir ki, bu hal digərlərinə də dərs olsun".

***Günel CƏLİLOVA***

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, bu günlərdə bəzi kütləvi informasiya vasitələrində ölkəyə minik avtomobilləri gətirən şəxslərin gömrük rəsmiləşdirilməsi zamanı əlavə ödənişlərə məcbur edildiyi ilə bağlı, eləcə də gömrük orqanlarını inhisarçılığı qorumaqda, rüşvət almaqda günahlandıran iftira və böhtan dolu, həqiqətə uyğun olmayan məqalə dərc edilib.**

# Gömrük Komitəsi avtomobil idxalçılarından qanunsuz haqq toplamaqda ittiham edildi...

*Cavab sərt və arqumentli oldu...*



DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin həmin xəbərlə bağlı açıqlamasında deyilir:

"Əvvəla, inhisarşılığın nə olduğunu bilməyən yazı müəllifinin diqqətinə çatdırırıq ki, bu gün istənilən şəxs ölkəyə avtomobil gətirə bilər və burda heç bir məhdudiyyətdən söhbət gedə bilməz. O ki qaldı ölkəyə idxal edilən minik avtomobillərinin rəsmiləşdirilməsi zamanı ödənilən vergi və rüsumlara, Dövlət Gömrük Komitəsi bildirir ki, ödənilən vergi və rüsumlar Azərbaycan Respublikasının Vergi Məcəlləsi və Nazirlər Kabinetinin 500 saylı qərarı ilə tənzimlənir. Bu barədə mövcud qanunvericilik və nəqliyyat vasitəsinin rəsmiləşdirilməsi proseduru Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsində aydın şəkildə izah edilib. Gömrük dəyərinin müəyyən edilməsi ilə bağlı səsləndirilən əsassız iddialara gəlincə, bir daha qeyd edək ki, Azərbaycan Respublikasının gömrük ərazisinə mal qismində gətirilən nəqliyyat vasitələrinin bəyannaməçi tərəfindən gömrük dəyərinin müəyyən edilməsi (gömrük dəyərləndirilməsi) beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərə (1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) VII maddəsinə, GATT-ın VII maddəsinin Tətbiq edilməsinə dair Razılaşmaya və onun əlavələrinə), Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa, həmçinin Azərbaycan Respublikasının qüvvədə olan digər qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir.

Bəyannaməçi tərəfindən bəyan edilmiş gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı məlumatlar dəqiq, kəmiyyəti müəyyən oluna bilən və sənədlərlə təsdiq edilmiş məlumatlara əsaslanmalıdır.

Gömrük orqanının gömrük dəyərləndirilməsi məqsədi ilə ona təqdim edilən hər hansı məlumatın, sənədin və ya bəyannamənin düzgünlüyünü araşdırmaq hüququ vardır.

Ölkə ərazisinə gətirilməsi nəzərdə tutulan avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi zamanı anlaşılmazlıqların baş verməməsi məqsədilə həmin avtonəqliyyat vasitələrinin Avro-4 ekoloji normalarına uyğun olmasını müəyyən etmək üçün ətraflı məlumatların (zavod buraxılış tarixi, markası, şassi nömrəsi, rəngi və s. ) qabaqcadan Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsinə təqdim edilməsi tələb olunur və bu barədə Komitə ictimaiyyət üçün dəfələrlə açıqlamalar yayımlayıb.

Rüşvətlə bağlı iddialara gəlincə isə, hər hansı nöqsanın müəyyən edilməsi üçün konkret faktlar üzrə araşdırma aparmaqla həqiqəti ortaya çıxarmaq mümkündür. Lakin gömrük orqanlarını rüşvət və inhisarçılıqda günahlandıran həmin yazıda gömrük qanunvericiliyinin pozulmasına dair konkret hər hansı faktın yer almaması, beş il bundan öncə gömrük xidmətinə qarşı irəli sürülən haqsız iddianın təkrar gündəmə gətirilərək xüsusilə qabardılması yazının da konkret məqsədlər, yəni gömrük orqanları və onun rəhbərliyinin fəaliyyətinə kölgə salmaq niyyətilə yazıldığının və yayımlandığının sübutudur.

Dövlət Gömrük Komitəsinin və onun rəhbərliyinin açıqlamalarında dəfələrlə bəyan olunub ki, gömrük sistemində korrupsiyaya, rüşvətxorluğa qarşı qətiyyətli mübarizə aparılır və istənilən şəxs bu barədə faktlara malik olduğu təqdirdə birbaşa hüquq-mühafizə orqanlarına da müraciət edə bilər. Üstəlik gömrük xidmətinin bu istiqamətdəki fəaliyyəti nəinki ölkə daxilində, beynəlxalq miqyasda da təqdirlə qarşılanır.

Sağlam tənqid cəmiyyətin inkişafını təmin edən əsas amillərdəndir və ölkəmizin gömrük orqanları da hər zaman sağlam tənqidi yüksək qiymətləndirərək öz işini vətəndaş məmnuniyyətinin təmin olunması istiqamətində qurur.

Ancaq bəzi hallarda media qurumları və şəxslər tərəfindən tənqid öz kontekstindən çıxarılaraq təhqirlərə, sifarişli yazılara, Komitənin və onun rəhbərliyinə qarşı qaralama kampaniyasına çevrilir ki, bu da yolverilməzdir.

Dövlət Gömrük Komitəsi bir daha media qurumları və onun nümayəndələrinə gömrük orqanlarının fəaliyyəti ilə bağlı məlumatları yayımlayarkən konkret faktlara əsaslanmağı tövsiyə edir".

# Riyaziyyat olimpiadasında verilmiş suala baxın - Malış-Toşa məntiq(sizliy)i...

**Məktəblilər arasında müxtəlif fənlər üzrə olimpiadaların keçirilməsi müsbət haldır, bu ənənə bütün dünya təhsilində geniş yayılıb. Azərbaycanda da müxtəlif təhsil qurumları tərəfindən ardıcıl olaraq olimpiadalar təşkil edilir.**




*Kamran Əsədov: "Deyəsən, fənn olimpiadasını təşkil edənlər məsələdəki şərti o qədər gün ərzində yerinə yetirirlər ki, onlara adi gəlir"*



*"Son 1 il ərzində keçirilən fənlər üzrə olimpiadalarda iştirakçılara təqdim olunan test tapşırıqları standartlara cavab vermir"*

Şagirdlərin ayrı-ayrı fənlər üzə biliyinin, mənimsədiklərinin sınağa çəkilməsi onları həm psixolji, həm də mənəvi cəhətdən inkişaf etdirir.

Lakin bu olimpiadalarda şagirdlərə təqdim edilən sualların bir hissəsi normalara uyğun olsa da, xeyli qisminin səviyyəsində, qoyuluşunda, sualların ifadə qaydasında ciddi nöqsanlar müşahidə edilir.

Əlbəttə, təqdim edilən bütün suallarda həm məntiq, həm də ana dilinin qaydaları izlənilməlidir. Ancaq təəssüf ki, bəzən biz bunu görə bilmirik.

Sosial şəbəkələrdə diqqət çəkən bir fakt yayılıb. Nədir bu fakt? Hansısa bir qurumun keçirdiyi riyaziyyat olimpiadasında şagirdlərə qəribə, həm də qeyri-etikliyi ilə diqqət çəkən bir sual təqdim edilib. Riyaziyyat olimpiadasında iştirak edən şagirdlərə təqdim edilən sual belədir:"Malış adlı pişik özünü başından quyruğunun sonunadək yarım saata yalayır, Toşa isə özünü 20 dəqiqə yalayır. Toşa Malışı 5 dəqiqəyə yalaya bilərsə, Malış Toşanı neçə dəqiqəyə yalayar?".

Belə bir sual riyaziyyat olimpiadasına necə düşə bilər? Ümümiyyətlə, sualın bu şəkildə qoyulması hansı anlama gəlir?

Tanınmış təhsil eksperti Kamran Əsədov hesab edir ki, olimpiadalarda bu kimi sualların qoyulması müsbət hal deyil. O, bakixeber.com-a açıqlamasında qeyd etdi ki, sullar əsasən başqa dillərdən tərcümə edilir, bu da analoji vəziyyətin meydana çıxmasına səbəb olur. "Son 1 il ərzində keçirilən fənlər üzrə olimpiadalarda iştirakçılara təqdim olunan test tapşırıqları standartlara cavab vermir. Birincisi, təqdim olunan test tapşırıqları ağırlıq dərəcəsindən asılı olaraq düzgün bölünmür. Bundan başqa, test tapşırıqları şagirdlərin yaş xüsusiyyəti və psixologiyasına uyğun olmur. Bundan da əlavə, test tapşırıqları aktual olmayan mövzular ətrafında olur, problemli məsələlərdən hazırlanır.Konkret bu fakt bir daha onu göstərir ki,

*"Bu fakt bir daha onu göstərir ki, fənlər üzrə olimpiada üçün test tapşırıqlarını hazırlayanlar, çalışmaları seçənlər bu işə ciddi yanaşmır"*

fənlər üzrə olimpiada üçün test tapşırıqlarını hazırlayanlar, çalışmaları seçənlər bu işə ciddi yanaşmır, səhlənkarlıq edirlər.

Tərtib olunmuş test tapşırığı, görünür ki, xarici dillərdən tərcümə olunub. Amma ondan sonra buna baxılmayıb.Təqdim olunan test tapşırıqları əxlaq normalarına uyğun olmalıdır, ancaq bu test tapşırığında bunu görmürük.

Deyəsən, fənn olimpiadasını təşkil edənlər məsələdəki şərti o qədər gün ərzində yerinə yetirirlər ki, onlara adi gəlir.Təqdim olunan test tapşırığı testologiya prinsiplərinə də ziddir"-deyə K.Əsədov qeyd etdi.

*İradə SARIYEVA*

# Yaxşı bir qol saatında diqqət yetirilməli əsas xüsusiyyətlər...

**İllər keçdikcə, qol saatlarının görünüşü, funksiyası və məqsədləri inkişaf etmişdir. İndi yaxşı bir saat qiymətli bir miras olaraq qəbul edilə bilər - zamanın sınağından keçən və növbəti nəslə ötürülməyə hazır olan bir hekayə kimi. Mükəmməl keyfiyyətli bir qol saatını istəyirsinizsə, nəzərinizdə tutduğunuz vacib xüsusiyyətlər bunlardır:**




**Mənşəyi**

Mükəmməl qol saatı seçiminə gəldikdə, ən yaxşı seçim İsveçrə istehsalı olan qol saatları üzərinə düşür. İsveçrə saatlarının dizayn və istehsalında bir veteran olan saatsaz Sebastyan Roussonun fikrinə görə, İsveçrədə hazırlanmış saatlar içərisindəki kiçik, həssas komponentlərə görə əllə istehsal olunmalıdır, bu da hər bir saatı incə bir sənət əsəri edir.

**Stil**

Bernhard H. Mayer® klassik, idman, dəb və yüksək texnologiya kimi kateqoriyalara aid olan müxtəlif növ qol saatlarını təklif edir - bunların hamısı hər bir şəxsin zövqünü oxşayan özünəməxsus görünüşü, funksiyası var və Bernhard H Mayer® brendinin hər bir şəxsiyyətə, münasibətə, əhvala və həyat tərzinə uyğun olan yaxşı bir qol saatı var.

**Mexanizm**

Bəziləri üçün əhəmiyyətsiz görünməsinə baxmayaraq, qol saatının əqrəblərinin qüsursuz "həzin" hərəkətli olması onun daxili mexanizminin gözəl bir şəkildə qurulduğunu və mükəmməl konstruksiya edildiyini göstərir.

Bir lüks saat almağı düşünürsünüzsə, mexaniki mexanizmlə təchiz olunmuş bir qol saatını seçməlisiniz. Əlbəttə ki, kvars saatları batareya ilə işlədiyinə görə istifadədə daha asandır, amma bir qol saatının ərsəyə gəlməsi üçün saatsazların böyük zəhməti və peşəkarlığı qoyulduğuna görə xanımlar və bəylər hələ də mexaniki saatlara üstünlük verirlər.

Bernhard H. Mayer kimi İsveçrə istehsalı olan qol saatı əldə etməyi düşünsəniz, əmin olun ki:

1. mexanizmi İsveçrə istehsalıdır

2. mexanizm İsveçrədə quraşdırılmışdır

3. istehsalçı tərəfindən yekun yoxlama İsveçrədə reallaşdırılmışdır

4. istehsal xərclərinin ən azı 60%-i İsveçrənin payına düşür.

Yalnız yuxarıda olanları qeyd edə biləcəyiniz zaman əsl İsveçrə saatına sahib olduğunuz bəlli olur.

Əvvəl qeyd etdiyimiz kimi, hər bir saat, xüsusilə İsveçrə istehsalı olan hər bir əsər əsl şah əsərlərdir, çünki hər bir saat əl ilə yığılmalı olan yığcam korpusa yığılmış kiçik hissələrdən ibarətdir. Əlbəttə ki, gələcək nəslə qürurla ötürə biləcəyiniz qiymətli və layiqli bir sərmayədir.

QNET haqqında daha ətraflı məlumat əldə etmək istəyirsinizsə, bu məqalə şirkət, birbaşa satış sənayesi haqqında və şirkətlə bağlı ən populyar sualların cavablarına dair daha ətraflı məlumat verməyə kömək edəcək.

Şirkət Malayziya, Sinqapur, Filippin, İndonezia və BƏƏ nin Birbaşa Satış assosiasiyalarına daxil olmaqla yanaşı, bütün dünyada müxtəlif idman sahələrində aktiv sponsorluq edir. Belə sponsorluqlardan ən əhəmiyyətlisi "Mançestr Siti" futbol klubunun həm kişi, həm də qadın komandalarının, eyni zamanda, Afrika Futbol Konfederasiyasının (CAF) rəsmi birbaşa satış partnyoru olmasıdır.

2018-ci ilin sentyabrında 20 illiyini qeyd edəcək industriyanın nəhənglərindən biri QNET şirkəti Asiyanın möhtəşəm birbaşa satış nəhəngi olaraq, müştərilərinə və müstəqil nümayəndələr adlanan distribüterlərinə həyat səviyyəsini yüksəldən geniş çeşiddə məhsullarını təklif edir. Şirkətin dünya üzrə 25 ofis və agentliyi, habelə 50-dən çox logistika mərkəzi var ki, bunlar da müxtəlif ölkələrdə yerləşir. BƏƏ-də şirkətin 3 yerdə qərargahı var: Dubay və Əbu-Dabidə ofisləri, Dubayda yerləşən logistika mərkəzi.

Asiyanın birbaşa və elektron satış üzrə nəhəng şirkəti olan şirkət 100-dən çox ölkədə fəaliyyət göstərən müstəqil nümayəndələr adlandırdığı distribüterlərini onlayn satış platforması vasitəsilə müxtəlif növ məhsullarla təmin edir. 25 ölkədə şirkətin ofis və agentliyi var.

Şirkət Malayziya, Sinqapur, Filippin və İndoneziyanın Birbaşa Satış Assosiasiyasının üzvüdür. Bundan əlavə, o, həmçinin, Hon-Konq Sağlam Qida Assosiasiyasının və Sinqapurun Ləvazimatlar Sənayesi Assosiasiyası kimi müəssisələr arasında özünəməxsus yer tutur.

Şirkət, həmçinin, korporativ ictimai məsuliyyəti ilə də seçilir. Buna dünyanın hər yerində keçirdiyi xeyriyyə aksiyaları dələlət edir. Belə aksiyalar əsasən xüsusi qayğıya ehtiyacı olan uşaqlara, cəmiyyətin inkişafına və cəmiyyətin rifahının yüksəlməsinə istiqamətlənir. Sözügedən xeyriyyə aksiyaları, həmçinin, Azərbaycanda da mütəmadi olaraq keçirilir. Buna misal olaraq, ölkənin hər milli bayramında Ümid Yeri Uşaq Evinə yardım edilir.

**Daha ətraflı informasiya üçün şirkətin vebsaytına müraciət edə bilərsiniz: https://www.qnet.net/.**

№ 72 (3970) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

23 APREL 2019-cu il

www.baki-xeber.com

## "Nar" Azәrbaycan Qran Prisi üçün texniki hazırlıqları başa çatdırıb

**Ölkәnin әn gәnc mobil operatoru "Nar" 26-28 aprel tarixlәrindә paytaxtımızda baş tutacaq "Formula-1 Azәrbaycan Qran-Prisi" yarışları zamanı hәm yerli, hәm dә әcnәbi abunәçilәrin telekommunikasiya tәlәblәrinә tam şәkildә cavab vermәk üçün hazırlıq işlәrini başa çatdırıb.**




Belә ki, mobil operator sürәt hәvәskarlarına әn yüksәk sәviyyәdә mobil rabitә xidmәtlәri göstәrmәk üçün әrazinin şәbәkә testlәrini tamamlayıb vә şәbәkәnin keyfiyyәt ölçülәrini müәyyәnlәşdirib. Yarış әrazisi vә tәdbir mәkanlarında şәbәkә tutumu maksimum optimallaşdırılıb, yüksәk keyfiyyәtli internetdәn kәsintisiz istifadә imkanını tәmin etmәk üçün 225 Mbps-dәk sürәt tәqdim edәn 4G (LTE-A) şәbәkә tutumu quraşdırılıb. Dәnizkәnarı bulvar әrazisindә yeddi mobil stansiya yaradılıb ki, bu stansiyaların yeri şәbәkә analizlәri vә Bakı Şәhәr Halqası Әmәliyyat Şirkәtinin sorğularına әsasәn tәyin edilib. Yarışların keçirilәcәyi әrazilәrdә 24/7 rejimindә çalışacaq "Nar" әmәkdaşları şәbәkәyә nәzarәt edәcәk, şәbәkә istifadәçilәrinә dәstәk olacaqlar. "Nar" şәbәkәsi haqqında әtraflı mәlumatı nar.az internet sәhifәsindәn öyrәnmәk olar. Qeyd edәk ki, yaranan hәr hansı bir sualla bağlı "Nar" abunәçilәri yüksәk keyfiyyәtli müştәri xidmәtlәrindәn özlәrinә rahat olan istәnilәn üsulla - Çağrı Mәrkәzinә zәng etmәklә, şәxsi kabinet, sosial şәbәkәlәr, SMS vә elektron poçt üzәrindәn yazmaqla yararlana bilәrlәr. "Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 93%-ni әhatә edir vә 6500-dәn artıq baza stansiyası ilә 2 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## Elan

Bakı şәhәr sakini Әliyev İsmayıl Nağdalı oğlunun adına verilmiş, Şәki rayonu Bideyiz kәndindә yerlәşәn fәrdi yaşayış evinin 1/175 saylı qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Vәrәzәt kәnd sakini Musayev Seyfәddin Valeh oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN: 330 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

DӘDRX Bakı şәhәr Әrazi İdarәsi tәrәfindәn Әliyeva Alidә Aslan qızının adına verilmiş, Bakı şәhәri, Nәrimanov rayonu, A.Nemәtulla küçәsi, ev 70 A, mәnzil 52-yә dair reyestrdәn çıxarış itdiyi üçün etibarsız sayılır.

Әhmәdov Ülkәr Eldәniz qızına Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

"Gilәzi-Yem" ATSC-dә 07 iyun 2019-cu il tarixindә, saat 12:00 da sәhmdarların ümumi yığıncağı keçirilәcәk.
Gündәliyә çıxarılan mәsәlәlәr:
1.İdarә heyәtinin 2018-ci il üzrә hesabatı
2.Dividendlәrin bölüşdürülmәsi
3.İllik hesabatın tәsdiqlәnmәsi
4.Digәr mәsәlәlәr
Ümumi yığıncaqda bütün sәhmdarlarım iştirakı vacibdir. Ünvan: Xızı rayonu, Gilәzi qәsәbәsi.

## BİLDİRİŞ

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "9 nömrәli Bakı Peşә Liseyi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 25 aprel 2019-cu il, saat 12:00-dәk "9 nömrәli Bakı Peşә Liseyi" Bakı şәhәri, Binәqәdi rayonu, K.Rәhimov küçәsi 70 ünvanında tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Aynaxanım Babayeva (telefon: 050-622 60 04). Zәrflәr 26 aprel 2019-cu il, saat 12:00-da hәmin ünvanda açılacaq.

***

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "18 nömrәli Bakı Peşә Liseyi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 22 aprel 2019-cu il, saat 11:00-dәk "18 nömrәli Bakı Peşә Liseyi" Bakı şәhәri, Binәqәdi rayonu, C.Xәndan küçәsi 17 A ünvanında tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Cәsarәt Bayramov (telefon: 012 563 37 84 ). Zәrflәr 23 aprel 2019-cu il, saat 11:00-da hәmin ünvanda açılacaq.

***

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "10 nömәli Bakı Peşә Mәktәbi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 24 aprel 2019-cu il, saat 11:00-dәk "10 saylı Bakı Peşә Mәktәbi" Bakı şәhәri, Sabunçu rayonu, Seyid Hüseyn küçәsi 12 ünvanına tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Fatma İbrahimova (telefon: 012 450 23 72). Zәrflәr 25 aprel 2019-cu il, saat 11:00-da hәmin ünvanda açılacaq.

***

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "3 nömrәli Bakı Peşә Mәktәbi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 22 aprel 2019-cu il, saat 11:00-dәk "3 nömrәli Bakı Peşә Mәktәbi" Bakı şәhәri, Nәsimi rayonu, Feyzulla Qasımzadә küçәsi 96 ünvanına tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Cәsarәt Bayramov (telefon: 012 563 37 84 ). Zәrflәr 23 aprel 2019-cu il, saat 11:00-da hәmin ünvanda açılacaq.

***

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "12 nömrәli Bakı Peşә Liseyi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 22 aprel 2019-cu il, saat 11:00-dәk "12 nömrәli Bakı Peşә Liseyi" Bakı şәhәri, Sabunçu rayonu, Bakıxanov qәsәbәsi, Mehmandarov küçәsi 4 ünvanına tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Mehman Әliyev (telefon: 012 425 21 42 ). Zәrflәr 23 aprel 2019-cu il saat 11:00-da hәmin ünvanda açılacaq.

***

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "1 nömrәli Bakı Peşә Liseyi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 22 aprel 2019-cu il, saat 11:00-dәk "1 nömrәli Bakı Peşә Liseyi" Bakı şәhәri, Sabunçu rayonu, Bakıxanov qәsәbәsi, Mehmandarov küçәsi 4 ünvanına tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Әtirә Bәdirova (telefon: 012 425 51 39 ). Zәrflәr 23 aprel 2019-cu il, saat 11:00-da hәmin ünvanda açılacaq.

***

Azәrbaycan Respublikasının Tәhsil Nazirliyinin tabeliyindә olan "2 nömrәli Bakı Peşә Mәktәbi" mühafizә xidmәtinin satın alınması mәqsәdilә kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmәk üçün qiymәt tәklifi vә digәr zәruri sәnәdlәr 22 aprel 2019-cu il, saat 11:00-dәk "2 nömrәli Bakı Peşә Mәktәbi" Bakı şәhәri, Nәrimanov rayonu, Әhmәd Rәcәbli küçәsi 5 B ünvanına tәqdim edilmәlidir. Әlaqәlәndirici şәxs - Hәsәn Bayramov (telefon: 012 541 01 77 ). Zәrflәr 23 aprel 2019-cu il, saat 11:00-da hәmin ünvanda açılacaq.





**Qoç** - İlk baxışdan göründüyünün tam tәrsinә olaraq irәlilәyiş vә uğur çәtin deyil. Başlayacağınız işlәrin bәzilәrini tanıdığınız insanlar görә bilmirlәr. Özünüzә әmin, qәtiyyәtli olun ki, әtrafınızdakı insanlar da sizdәn ibrәt alsınlar.



**Buğa** - Stabilliyә әlahiddә ehtiyac duyulduğu zamandır. Gәlirlәri artırmaq üçün alternativ yollar arayın. Yalnız öz maraqlarınızı tәmin edәndәn sonra yaxın әtrafınızdakı insanların istәklәrinin reallaşdırılması ilә mәşğul olmalısınız.



**Әkizlәr** - Müstәqil çalışmaq, sәs-küydәn vә vurnuxmadan uzaq durmaq istәyәcәksiniz. Yaşanan hadisәlәrә marağınız azalmasın. Kommunikativ olun, әlaqәlәri aktivlәşdirin. Tәmaslarda fәallıq göstәrin.



**Xәrçәng** - Sürprizlәr vәd etmәyәn, psixoloji baxımdan komfortlu gündür. Çәtin qәrarın qәbulunda tәlәsmәyin. Hadisәlәrin rәvan axarı, köklü dәyişikliklәrin yoxluğu әhvalınıza müsbәt tәsir edәcәk.



**Şir** - İdealist olmayın. Konkret fәaliyyәti şüarlarla pәrdәlәmәyin. Sizi maraqlandıran proseslәrin praktiki yönlәrini araşdırın. Tәminat, alış-veriş, maliyyәlәşdirmә ilә bağlı problemlәr yaranarsa, onların sәbәblәrini araşdırmamış işә başlamayın.



**Qız** - Tәlәsiklik vә vurnuxma sevmәyәn zamandır. Yeni material axtarışları çәtinlәşәcәk. Bitkin hesab etdiyiniz ideya mükәmmәlikdәn çox uzaqdır. Real gәlir vә praktiki mәnfәәt edәn işlә mәşğul olun.



**Tәrәzi** - Günün ilk yarısı genişmiqyaslı layihәyә vә ya yeni işә başlamaq üçün әlverişli zaman deyil. Birgә fәaliyyәtdә şәriklә tәrәfdaşı tәlәsdirin. Apatiya, süstlük zamanı deyil. Layihәnizin praktiki yönlәrini yoxlayın.



**Әqrәb** - Maliyyә mәsәlәlәrindә yaranan mübahisәlәri hәll edin. Mövqelәrinizdәn geri çәkilmәyin. Sizin fәaliyyәtinizә sәdlәr yaradan, problemlәrinizi artıran insandan maksimal dәrәcәdә uzaq durun.



**Oxatan** - Fәaliyyәt sahәnizdә planlı işlәrә üstünlük verin. Seçim çәtin olsa da, yanlış qәrar vermәyin. Etibara, keyfiyyәtә, sabitliyi, uzunmüddәtli effektә, yüksәk sәviyyәli sonuclara can atın.



**Oğlaq** - Qüvvә vә imkanlarınızı dәqiq hesablayın. Yenilәşәn şәraitdә, dәyişәn situasiyada maddi imkanlarınızı formalaşdıran nüanslara diqqәt verin. Gәlir, maaş, yeni maliyyә mәnbәlәri, gündәlik qayğılar vә ödәnişlәr aktuallaşır.



**Dolça** - Şәxsi münasibәtlәrin hәlli üçün günün ilk yarısı әlverişli zaman deyil. Dialoq uzana bilәr. Daşınmaz әmlak, miras,ailә büdcәsi, ev tәsәrrüfatı ilә bağlı mәsәlәlәri tәkrarәn müzakirә etmәk olar.



**Balıqlar** - Zәruri ehtiyac olmadan risk etmәyin, tәlәsik addımlar atmayın. Yaxın әtrafınızdakı insanların sizdәn kәskin şәkildә narazı qalmalarına imkan vermәyin. Sizi intriqalara cәlb etmәyә, tәxribatlara çәkmәyә çalışırlar.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Xәzinә tapan iki tarixçidәn biri "satqın" çıxdı, varlanmaq әvәzinә borca düşdülәr

**Almaniyanın Eslingen şәhәrindәn olan iki tarixçi 2017-ci ilin yayında arxeoloji qazıntılar zamanı tәsadüfәn xәzinә tapıb.**

Onlar bu barәdә hökumәtә mәlumat vermәyiblәr. Almaniya qanunlarına görә, xәzinә tapan şәxslәr dәrhal bu barәdә dövlәt orqanlarına mәlumat vermәlidirlәr. Xәzinә tapan şәxsin şәxsi hәyәtindә olsa belә, o dövlәtә mәxsus hesab edilir. 2018-ci ilin yayında tarixçilәrdәn biri vicdanının sәsinә qulaq asaraq bu barәdә yerli hakimiyyәt orqanlarına mәlumat verib. Elә o gündәn dә onların hәyatında çәtin dövr başlayıb. Belә ki, tarixçilәr tapdıqları xәzinәni tәhvil vermәklә yanaşı, üstәlik cәrimә dә ödәmәlidirlәr. Әks halda, onları hәbs gözlәyir. Tapılmış gil küpәnin içәrisindә 9200 gümüş sikkә aşkarlanıb. Onların ümumi çәkisi 4,6 kq tәşkil edib. Gümüş sikkәlәrin әn qәdimi 1280-ci, әn yenisi 1350-ci ilә aiddir. Mütәxәssislәrin dediyinә görә, bu, Almaniyada son 10 ildә tapılmış orta әsrlәrә dair әn böyük xәzinәdir.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.